RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 190 (8783) ÇƏRŞƏNBƏ, 8 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Paralimpiyamızı zəfərə səfərbər edən Prezidentin idmana verdiyi dəstəkdir



Xəbər verildiyi kimi, milli Paralimpiya komandamız Tokioda keçirilən XVI Yay Paralimpiya Oyunlarını 14-ü qızıl, 1-i gümüş və 4-ü bürünc olmaqla 19 medalla başa vurmuşdur. Azərbaycan 163 ölkənin qatıldığı bu oyunlarda qazanılan nəticələrə əsasən 10-cu pillədə qərarlaşmışdır. Paralimpiyamız bununla öz tarixində görünməmiş böyük qələbələrə, tarixi rekorda imza atmış və Azərbaycan Paralimpiyası idmanın ən yüksək zirvələrini fəth etmək gücünü dünyaya göstərmişdir.

Bu qələbələr Azərbaycanın həm də paralimpiyanın inkişaf etdiyi ölkə olduğunu bir daha dünyaya göstərdi. Eyni zamanda ölkəmizdə paralimpiyanın inkişafına göstərilən hərtərəfli dövlət dəstəyinin və bu dəstəyə qarşılıq idmançılarımızın yenilməz mübarizə əzminin məntiqi nəticəsi oldu.

Sentyabrın 6-da Prezident İlham Əliyevin Tokioda keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi, eləcə də milli Paralimpiya komandamızın üzvlərinin təltif olunmasına dair sərəncamlar imzalaması da paralimpiyaçılara göstərilən yüksək diqqətin, onların qələbələrinə verilən böyük dəyərin bir təzahürüdür.

Hələ ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və xeyir-duası ilə formalaşan milli paralimpiya hərəkatı elə ilk vaxtlardan dövlət qayğısı ilə əhatə olunub. Bu qayğıkeşlik, idmanımızı, paralimpiyamızı zəfər yoluna səfərbər edən dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilib. Əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, əlilliyi olan şəxslərin idmana marağının artırılması, idmana cəlbi və paralimpiyanın inkişafı sahəsində ardıcıl və kompleks tədbirlər görülüb və görülməkdə davam edir.

Belə mühüm tədbirlərdən biri kimi 2008-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Sumqayıt şəhərində MDB məkanında ilk dəfə beynəlxalq standartlara uyğun Paralimpiya İdman Kompleksinin açılışı olub. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin nəzdində fəaliyyət göstərən bu kompleks paralimpiyaçılarımızın böyük qələbələrə nail olmaları üçün yüksək səviyyədə təlim-məşq prosesi keçmələrində mühüm rola malikdir. Tokioda Yay Paralimpiya Oyunlarında parlaq qələbələr qazanan idmançılarımızın böyük əksəriyyəti də bu kompleksdə hazırlıq prosesi keçib.

Dövlət başçısı paralimpiyaçılarımızı daim diqqət mərkəzində saxlayaraq onlarla tez-tez görüşür, paralimpiyadada yüksək nailiyyətlər əldə etmələri üçün hər bir qayğıkeşlik göstərir. XVI Yay Paralimpiya Oyunları zamanı da bunun bir daha şahidi olduq: Tokioda qələbə qazanan idmançılarımızı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hər dəfə təbrik edirdilər ki, bu da paralimpiyaçılarımızı növbəti və daha böyük zəfərlərə ruhlandıran güclü mənəvi dəstək olurdu.

Prezident İlham Əliyevin tapşırığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslər arasında idmanın təbliğinə, onların idmana aktiv şəkildə cəlb edilməsinə yönələn tədbirlər həyata keçirilməklə yanaşı, Milli Paralimpiya Komitəsinə illik əsasda maliyyə dəstəyi də ayrılır. Son 3 ildə bu vəsaitin məbləği 2 dəfə artırılaraq 2,2 milyon manatı ötüb.

Qeyd edək ki, bundan əvvəlki 6 Yay Paralimpiya oyununda (Atlanta, Sidney, Afina, Pekin, London, Rio de Janeyro) milli komandamız cəmi 9 qızıl medal qazanmışdısa və 7 nəfər Paralimpiya çempionu olmuşdusa, Tokio Paralimpiya Oyunlarında qazandığı qızıl medalların sayı 14 oldu. Digər tərəfdən Azərbaycan yığması yeni dünya və paralimpiya rekordu müəyyən etdi, 2 idmançı dünya rekordunu, 1 idmançı isə paralimpiya rekordunu təzələdi. İlk dəfə olaraq bir idmançımız üçqat Paralimpiya çempionu kimi adını tarixə yazdı.

Maraqlı və həm də fərəhli məqamlardan biri də Azərbaycan paralimpiya yığmasının cüdoçularının bu idman növünün vətəni sayılan Yaponiyada bütün rəqiblərini üstələyərək qələbə qazanmaları oldu. Həmçinin Azərbaycan "Tokio-2020" Paralimpiya Oyunlarını qızıl medalların sayına görə 10-cu pillədə başa vurdu ki, bu da indiyədək ölkəmizin bu oyunlarda tutduğu yerlərdən (Atlantada yer tutmayıb, Sidneydə 60-cı, Afinada 45-ci, Pekində 38-ci, Londonda 27-ci, Rio de Janeyroda 47-ci yer) əhəmiyyətli dərəcədə yüksəkdir.

*"Azərbaycan"*



# İlham ƏLİYEV: "Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib.

*Ardı 2-ci səh.*

## Şimali Makedoniya Respublikasının Prezidenti zati-aliləri cənab Stevo Pendarovskiyə

Hörmətli cənab Prezident!

Ölkənizin müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Şimali Makedoniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## F.F.Qayıbovun Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Fazil oğlu Qayıbov Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2021-ci il*

# Kəlbəcərdə bal süfrəsi açıldı

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 28 ildən sonra Kəlbəcərdə yetişdirilən ilk nübar baldan daddılar

Əslində, o gün tariximizə elə həkk olundu ki, düşmənlərimiz də bunu unutmayacaqlar! Unutmasınlar! Ulu Öndər Heydər Əliyev demişkən, Kəlbəcər Qarabağın qala qapısıdır. O qapı 28 il üzümüzə bağlı qaldı.

Şükürlər olsun ki, artıq bu barədə keçmiş zamanda danışırıq. Bu gün Kəlbəcərdən və oradakı bal kimi söhbətdən söz açmaq istəyirik. Bir neçə aydır ki, Kəlbəcər və orada arıçılıq təsərrüfatı ilə məşğul olan kəlbəcərlilər ən əziz qonaqlarının yolunu gözləyirdilər.

*Ardı 2-ci səh.*




## Sumqayıt Kimya Sənaye Parkı qeyri-neft sektorunun flaqmanına çevrilir

### Burada istehsal olunan məhsullar daxili tələbatı ödəməklə yanaşı, ixrac da edilir

Son bir neçə ildə Azərbaycanda sənayeləşmə istiqamətində mühüm addımlar atılır, o cümlədən ümumilikdə iqtisadiyyatın, xüsusən neft-qaz sektorunun inkişafında xüsusi rolu olan sənaye parkları və sənaye məhəllələri yaradılır.

Onu da qeyd edək ki, belə tədbirlər birbaşa dövlət başçısının təşəbbüsü ilə həyata keçirilir və Prezident İlham Əliyevin bu günlər Sumqayıt Sənaye Parkında "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışında iştirak etməsi bunu sübut edir.

*Bax: səh. 6*

## Tərtərdə 5 yaşayış məntəqəsini əhatə edən avtomobil yolu yenidən qurulub

Tərtər rayonunun Evoğlu-Aşağı Qapanlı-Azad Qaraqoyunlu-İlxıçılar-Köçərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Prezidentin sərəncamına əsasən, Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan tikinti işləri başa çatdırılıb.

Evoğlu-Aşağı Qapanlı-Azad Qaraqoyunlu-İlxıçılar-Köçərli kəndlərinə gedən və ümumi uzunluğu 11 km olan avtomobil yolları 7 minə yaxın əhalinin yaşadığı 5 kəndin rahat gediş-gəlişini təmin edir. Bundan öncə uzun müddət əsaslı şəkildə yenidən qurulmadan istismarda olması səbəbindən sözügedən yaşayış məntəqələrində yaşayan vətəndaşların istər rayon mərkəzinə, istərsə də qonşu rayonlara çıxışında xüsusən payız-qış mövsümündə problemlər yaşanırdı. Artıq bu problem aradan qaldırılıb.

*Bax: səh. 6*





## Ağcabədidə toxum sərgi-satış yarmarkası keçirilib

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Dövlət Toxum Fondunun təşkilatçılığı ilə Azərbaycanın müxtəlif regionlarında toxum sərgi-satış yarmarkaları keçirilir.

Növbəti sərgi-satış yarmarkası Ağcabədi rayonunda təşkil olunub. Yarmarkada Aqrar Xidmətlər Agentliyinin müvafiq qurumları, Aqrar Kredit və İnkişaf Agentliyi, "Aqroservis" ASC, Azərbaycan Toxumçular Assosiasiyası, yerli toxum istehsalçıları, elmi-tədqiqat institutları, toxum istehsalı və satışı ilə məşğul olan şirkətlər, fermerlər iştirak ediblər.

*Bax: səh. 6*

## Peyvəndləmədə iştirak, qaydalara və tövsiyələrə əməl etmək sağlamlığı qorumaq üçün vacibdir

Ötən şənbə və bazar günləri Bakı şəhəri də daxil olmaqla, bölgələrdə ictimai nəqliyyatın işləməməsi, ciddi ehtiyac olmadığı halda insanların küçəyə, bazara, mağazaya və ya digər ünvanlara getməmələri, habelə tibbi maskadan istifadə edilməsi və ara məsafəsi gözlənilməsi səbəbindən yoluxma hallarında nisbi azalma müşahidə edilmişdir.

Uzun müddət dövlət qulluğunda çalışmış Eldar Bədirbəyli bildirir ki, biz özümüzün, ailəmizin və ünsiyyətdə olduğumuz yaxın ətrafımızın sağlamlığını istəyiriksə, ilk növbədə, Operativ Qərargah tərəfindən müəyyənləşdirilən qaydalara ciddi əməl etməliyik, şadlıq saraylarında, xüsusən, bölgələrdə mağar toylarını və yas mərasimlərini yığcam, ara məsafəsi gözləməklə keçirmək lazımdır.

*Ardı 4-cü səh.*



# *İlham ƏLİYEV:* "Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır"

## Prezident İlham Əliyevin çıxışı



*Əvvəli 1-ci səh.*

- Siz gənclər və idman naziri vəzifəsinə təyin edilirsiniz, sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız. Ölkəmizin idman ictimaiyyəti sizi yaxşı tanıyır. Siz uzun illər idman sahəsində fəaliyyət göstərirsiniz, eyni zamanda siz Avropa Gimnastikasının prezidentisiniz. Bu vəzifəyə bir neçə il bundan əvvəl seçilmisiniz və bu, onu göstərir ki, beynəlxalq arenada da nüfuz qazanmısınız. Bu amilləri nəzərə alaraq, bu yüksək etimadı sizə göstərirəm və ümid edirəm ki, idman sahəsində, gənclər siyasəti sahəsində yaxşı nəticələr olacaq.

Bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edibdir və bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız dünya, Avropa oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub. Düzdür, idmançılarımız bu dəfə qızıl medal qazana bilmədilər, amma ona çox yaxın idilər. Amma yenə də deyirəm, idmanda məğlubiyyətlər də olur, qələbələr də olur. Bütövlükdə idman sahəsində əldə edilmiş nəticələr çox müsbətdir. Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik.

Eyni zamanda idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır.

İdman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür.

Mən əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bu prinsipləri gündəlik fəaliyyətinizdə rəhbər tutaraq nazirliyin fəaliyyətini təşkil edəcəksiniz. Sizi təbrik edirəm və sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

❖ ❖ ❖

**Fərid QAYIBOV:**

- Çox sağ olun, cənab Prezident. Əvvəlcə icazə verin, göstərdiyiniz bu etimada, haqqımda deyilən bu sözlərə görə Sizə dərin minnətdarlığımı bildirim. Bu, mənim üçün böyük bir şərəfdir. Verdiyiniz tapşırıqlar, tövsiyələr aydın oldu, elə dərhal bu istiqamətdə işləməyə başlayacağam. Söz verirəm ki, əlimdən gələni edəcəyəm. İnanıram ki, sağlam cəmiyyətdə yaşayan Azərbaycan gəncləri yaxın gələcəkdə də öz yeni uğurları ilə, idmançılarımız isə yeni qələbələri ilə, cənab Prezident, Sizi və Azərbaycan xalqını sevindirəcəklər. Çox sağ olun.

# Kəlbəcərdə bal süfrəsi açıldı

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 28 ildən sonra Kəlbəcərdə yetişdirilən ilk nübar baldan daddılar

*Əvvəli 1-ci səh.*

Həmin səfər avqustun 16-da gerçəkləşdi. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərin füsunkar gözəlliklərinin şahidinə çevrildilər. O gün sevinən yalnız bu cütlük deyildi, dağlar da öz yenilməz sərkərdəsini, onları düşmən əsarətindən xilas edən Müzəffər Ali Baş Komandanı doğma övladı kimi bağrına basdı. Murovdağın ən uca zirvəsindən - Ömər aşırımından xalqımızı salamlayan Azərbaycan Prezidenti məğrurluğu ilə bir az da zirvələşdi! Gülümsər çöhrəsindən qalib sərkərdəlik süzüldü...

Bu da Kəlbəcər. Dolama yollar əziz qonaqları Kəlbəcərin əsrarəngiz gözəllikləri ilə görüşdürür. Sən demə, onları rayonun Tutquçay ərazisində bu il bal yetişdirən arıçılar da gözləyirmiş. Bu görüşün özgə bir adı vardı: " bal süfrəsinin qonaqları"...

Arıçılarla görüşən Azərbaycan Prezidentinə kəlbəcərlilərin adətinə görə bal hədiyyə olunmalı idi. Əgər sac üstündə çörək bişirilsəydi, qonaqlar süfrəyə dəvət edilər və orada isti çörək kəsilərdi. Nə gözəl mənzərə oldu, İlahi! Arıçılarımız cənab Prezidentə arı şanı hədiyyə etmək üçün yeşikləri bir-bir axtardı. Ən yaxşı dolu şan tapmaq üçün bir neçə arı ailəsinə baş çəkildi. Kəlbəcər arılarının onları sancmayacağını da Azərbaycan Prezidenti xüsusi vurğuladı: "Yox, bizə dəyməz, o bilir ki, biz kimik..."

Azərbaycan Prezidenti və birinci xanım Mehriban Əliyeva ilə görüşən arıçılardan biri Kəlbəcərdə doğulub-böyüyən, gənclik illəri Qarabağda keçən Sabir Mustafayevdir. Ömrünün yarıdan çoxunu arıçılıqla məşğul olub. 28 ildən sonra Kəlbəcərə dönən arıçı deyir ki, əvvəllər də bu sənətlə məşğul olub. 40 ilik arıçılıq təcrübəsi olan Sabir Mustafayev Kəlbəcərin təbiətinin füsunkarlığını, təbii sərvətlər yatağı olduğunu söyləyir: "...Arıçılıq üçün Kəlbəcər ən əlverişli məkandır: buranın bitki örtüyü zəngin olduğundan balımız çox keyfiyyətlidir. Sovet dövründə Xalq Təsərrüfatları sərgisi keçirilirdi və Kəlbəcər balı mükafata layiq görülürdü. Cənab Prezident bizimlə görüşərək işlərimizlə maraqlandı. Görüş çox səmimi keçdi. Biz Dəlidağın sağ ətəyində Qazıxan yaylağındayıq. Kəlbəcərdə bir süzüm etdik, əla alındı. Ali Baş Komandan ilə görüşdüyümüz yerə köçdüyümüz təxminən bir ay idi. Hazırda həmin bölgədəyik və arılarımız üçüncü süzümə gedir. Qazıxan yaylağında təxminən 8-10 kilo bal çəkəcəyik, çünki getdikcə havalar soyuyur".



Kəlbəcərə ilk arı köçünü Sabir Mustafayev, sonra isə dörd nəfər aparıb. Əlbəttə, arıçılar işğaldan azad edilmiş ərazilərə getmək üçün rəsmi müraciət ediblər. Sabir Mustafayev deyir ki, təhlükəsizliklə bağlı bizə xəbərdarlıq edilmişdi, şükürlər olsun ki, indiyə kimi hər hansı bir hadisə olmayıb.

Arıçı onu da dedi ki, rayonun ərazisindəki bütün kəndarası yollar və körpülər ermənilər tərəfindən dağıdılıb. Rayon mərkəzinə Daşkəsəndən elektrik çəkilsə də, hələ darmadağın olunmuş kəndlərdə işıq yoxdur: "Ən əsas çətinlik Qazıxan yaylağında telefonun tutmamasıdır. Hələ ki, rayonun ərazisində dükan-bazar və yanacaqdoldurma məntəqəsi yoxdur. Çörək almaq üçün Gəncəyə gəlməlisən, məsafə çox uzaqdır. Marketə, yanacaqdoldurma məntəqəsinə çox ehtiyac var".

Peşəkar arıçı bildirdi ki, Kəlbəcərdə qazandıqları ancaq bal deyil. Arı ailələri də artıb, çoxalıb: "...Bura iki yüz arı ilə gəlmişdim, beçə verməklə, təxminən yüzə qədər arı ailəsi də artıb. Güman edirəm ki, Kəlbəcərə gələn il daha çox arı ailəsi köçürüləcək".

Kəlbəcərə ilk arıçı kimi qədəm basan Sabir Mustafayev builki quraqlığın dağlardan da yan ötmədiyindən danışdı: "Quraqlıq olması problem yaradır. Sular azalıb, bizim kənddə suyun səviyyəsi təxminən üç dəfəyə qədər aşağı enib. Arıquşları bəzən arıları işləməyə qoymur. Ancaq, bilirik ki, onlar köçəri quşlardır, uçub gedəcəklər. Kəlbəcərdə yaşayış olmadığı üçün meşələrdə ayı çoxalıb. Bizim təsərrüfata ziyan verməyib, ancaq bəzi heyvandarların təsərrüfatına "əl gəzdirib". Günəş panellərindən istifadə edib elektrik almışıq. Bununla da arıxananı qoruya bilirik..."

Bu bir arıçının illər sonra doğma yurdla bağlı bal kimi söhbətidir. Yolçu yolda gərək. Arıçımız əzəmətli Murovdağdan aşaraq Kəlbəcərə tələsirdi. Xəyalına bilirsiz kimlər və nələr düşür: ölməz şairimiz Ənvər Rzanın vaxtilə yazdığı "Kəlbəcərə gedən yollar"ındakı mənzərə:

Yazda əriş-arğac olur
Kəlbəcərə gedən yollar.
Yayda örüş-arxac olur
Kəlbəcərə gedən yollar...

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# Azərbaycanla Qətər arasında fövqəladə hallarla mübarizə sahəsində əlaqələr müzakirə olunub

Sentyabrın 7-də Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın həmsədri, Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Qətərin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Kəmaləddin Heydərov Azərbaycan ilə Qətər arasında müxtəlif sahələri əhatə edən yüksək səviyyəli əməkdaşlıq münasibətlərinin mövcudluğunu xatırladaraq, bunun əsasında hər iki ölkə liderlərinin siyasi iradəsinin və müdrik uzaqgörənliyinin dayandığını vurğulayıb.

Nazir həmçinin Azərbaycan torpaqlarının 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğal altında saxlanılması, bu müddətdə şəhər və kəndlərimizin viran qoyulması, 44 gün davam etmiş Vətən müharibəsi nəticəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun ərazilərimizi işğaldan azad etməsi, azad edilmiş ərazilərdə hazırda sürətlə aparılan abadlıq və quruculuq işləri barədə geniş məlumat verib. İşğaldan azad edilmiş torpaqlarımızın zəngin təbii sərvətlərə, o cümlədən böyük turizm potensialına malik olduğunu qeyd edən K.Heydərov Qətər iş adamları, biznes dairələri və sərmayəçilərini buraya sərmayə yatırmağa dəvət edib.

Sonra nazir K.Heydərov həmsədri olduğu Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın fəaliyyəti barədə ətraflı məlumat verib.

Daha sonra nazir qonaqlara FHN-nin fəaliyyəti, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlər haqqında ətraflı məlumat verib, 2014-cü ildə imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"dən söz açıb, iki ölkənin müvafiq qurumları arasındakı səmərəli əməkdaşlıqdan danışıb.

Qətər Dövlətinin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxi səmimi görüşə görə təşəkkürünü bildirib. O, ölkəsinin xarici işlər naziri, Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın həmsədri Şeyx Mohammed bin Abdulrəhman Al-Taninin salamlarını nazir Kəmaləddin Heydərovun diqqətinə çatdırıb. Azərbaycanla Qətər arasında əməkdaşlığın geniş potensialından bəhs edən dövlət naziri həmçinin iki ölkənin fövqəladə hallarla mübarizə üzrə uyğun qurumları arasında əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# *Dövlət naziri:* "Qətər şirkətlərinin azad olunmuş ərazilərdə həyata keçirilən layihələrə cəlb edilməsində maraqlıyıq"

Sentyabrın 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qətər Dövlətinin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, nazir Ceyhun Bayramov dost Qətər ölkəsinin nümayəndə heyətini məmnuniyyətlə salamlayıb və iki ölkəni birləşdirən dərin mədəni, dini əlaqələrdən bəhs edib. Nazir tərəflər arasında həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətini vurğulayıb və ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı anlaşmanın mövcud olduğunu bildirib. Həm ikitərəfli, həm də çoxtərəfli platformalarda Azərbaycan ilə Qətər arasında əməkdaşlıq və dialoqun mövcud olduğu qeyd edilib.

Dövlət naziri Sultan bin Saad Al-Mureyxi səmimi görüşə görə təşəkkürünü bildirib, Qətər Dövlətinin xarici işlər naziri Şeyx Mohammed bin Abdulrəhman Al-Taninin salamlarını nazir Ceyhun Bayramova çatdırıb. O, iki ölkənin Xarici İşlər nazirlikləri arasında həyata keçirilən məsləhətləşmələrin Bakıda təşkil olunan növbəti mərhələsi çərçivəsində əməkdaşlıq gündəliyinin bir sira məsələləri üzrə ətraflı müzakirələrin aparıldığını söyləyib.

Nazir Ceyhun Bayramov iki ölkənin mövqeyinin ətraflı şəkildə izah edilməsi və qarşılıqlı anlaşmanın təmin olunması baxımından siyasi məsləhətləşmələrin mütəmadi şəkildə keçirilməsinin vacibliyini qeyd edib. Nazir Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinə verdiyi davamlı dəstəyi, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində illik əsasda ölkəmizlə bağlı qəbul edilən qətnamələri birmənalı şəkildə dəstəklədiyi üçün Qətər Dövlətinə təşəkkürünü bildirib. C.Bayramov qarşı tərəfi bölgədə mövcud olan cari vəziyyət, Ermənistanın 30 ilə yaxın həyata keçirdiyi işğalçılıq siyasətinin ağır nəticələri, 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin işğaldan azad edilməsi, habelə azad olunmuş torpaqlarda aparılan bərpa və quruculuq işləri barədə məlumatlandırıb.

Azərbaycana qarşı onilliklər ərzində həyata keçirilən təcavüzkar siyasətə rəğmən ölkəmizin beynəlxalq hüququn prinsipləri əsasında qonşu dövlətlə münasibətləri normallaşdırmağa hazır olduğu və bu mövqeyimizin dövlət rəhbəri tərəfindən səsləndirildiyi qeyd edilib.

Görüş zamanı Qətər Dövlətinin rəsmisinə həmçinin Ələt Azad İqtisadi Zonası haqqında məlumat verilib, Qətər şirkətlərinin buraya cəlb olunması imkanları qeyd edilib. Habelə hər iki ölkənin XİN-ləri arasında informasiya mübadiləsi sahəsində əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyəti səsləndirilib.

Qətərin dövlət naziri Azərbaycanın qonşu dövlətlə münasibətlərin normallaşdırılması və sülhün təmin olunmasına dair mövqeyinin təqdir edildiyini vurğulayıb. O, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa prosesi çərçivəsində layihələrin icrasına Qətər şirkətlərinin də cəlb edilməsində maraqlı olduqlarını bildirib. İnformasiya mübadiləsi sahəsində əməkdaşlığın həyata keçirilməsi üçün mövcud imkanlardan istifadə edilməsinin önəmi qeyd olunub.

Sonda Qətər Dövlətinin rəsmisi Azərbaycan xalqına və dövlətinə rifah və inkişaf arzu edib.

# *Nurlan Niqmatulin:* "Qardaş Azərbaycan Qazaxıstan üçün çox mühüm və etibarlı tərəfdaşdır"



Parlament Sədrlərinin V Ümumdünya Konfransında iştirak etmək üçün Avstriyada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Qazaxıstan Parlament Məclisinin Sədrini səmimiyyətlə salamlayan Sahibə Qafarova Azərbaycanın dost və qardaş Qazaxıstanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. O, Azərbaycan ilə Qazaxıstan arasında Ulu Öndər Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayev tərəfindən əsası qoyulan dostluq, qardaşlıq münasibətlərinin hazırda iki ölkənin dövlət başçıları tərəfindən uğurla davam etdirildiyini bildirib.

Ölkələrimizin istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayan Milli Məclisin Sədri TÜRKPA çərçivəsində əlaqələrin əhəmiyyətini xüsusi qeyd edib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, dövlətlərimiz arasında münasibətlər möhkəm hüquqi bazaya əsaslanır. Tərəflər arasında imzalanan sənədlər müxtəlif sahələri əhatə etməklə, Azərbaycan-Qazaxıstan əməkdaşlığının daha da dərinləşməsini təmin etmişdir.

Dövlətlərarası münasibətlərin inkişafında Azərbaycan və Qazaxıstan parlamentlərinin rolu haqqında da danışan Milli Məclisin Sədri hər iki ölkənin qanunvericilik orqanlarında mövcud olan dostluq qruplarının fəaliyyətini müsbət qiymətləndirib. Bildirilib ki, deputatların qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi əlaqələrimizin daha da inkişafı və tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox əhəmiyyətlidir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbə haqqında qazaxıstanlı həmkarına məlumat verən Milli Məclisin Sədri deyib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoyulub. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü yerinə yetirərək ərazi bütövlüyünü bərpa edib. Artıq münaqişə tarixə qovuşub və Azərbaycan işğaldan azad olunan ərazilərin bərpasına başlayıb.

Sahibə Qafarova həmçinin Ermənistanın regionda davamlı sülhün təmin olunmasına qarşı yönəlmiş təxribatçı hərəkətləri barədə də geniş məlumat verib. O, Ermənistanın minalanmış ərazilərin tam xəritəsini təqdim etməkdən imtina etdiyini, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın müddəalarını kobud şəkildə pozaraq azad olunmuş ərazilərimizə terrorçu qruplar göndərdiyini, sərhəddə təxribatlar törətdiyini diqqətə çatdırıb.

Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulin Sahibə Qafarovanı səmimiyyətlə salamlayaraq qardaş Azərbaycanın Qazaxıstan üçün çox mühüm və etibarlı tərəfdaş olduğunu bildirib. O, ölkələrimiz arasında əlaqələrin inkişafında dövlət başçılarımızın şəxsi dostluq münasibətlərinin önəmini qeyd edib.

Nurlan Niqmatulin ikitərəfli əlaqələrin bütün sahələrdə dinamik inkişaf etdiyini, münasibətlərin daha da dərinləşməsi üçün geniş imkanlar olduğunu qeyd edib. O, diqqətə çatdırıb ki, ali qanunvericilik orqanları arasında əlaqələrimizin inkişafı digər sahələrə də öz müsbət təsirini göstərir. Bu, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından əhəmiyyətlidir. N.Niqmatulin Azərbaycanın TÜRKPA-nın fəaliyyətinə çox mühüm töhfələr verdiyini də diqqətə çatdırıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, Milli Məclisin Sədri Sahibə Qafarova Parlament Sədrlərinin V Ümumdünya Konfransında iştirak etmək üçün Avstriyanın paytaxtı Vyana şəhərinə işgüzar səfəri çərçivəsində Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq və Latviya parlamentinin Sədri İnara Murniyetse ilə də görüşüb. Milli Məclisin Sədrinin səfər çərçivəsində görüşləri davam edir.

# Milli Məclisin Sədri Yaponiya Parlamentinin Müşavirlər Palatasının Sədri ilə görüşüb



Avstriyanın paytaxtı Vyanada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 7-də Yaponiya Parlamentinin Müşavirlər Palatasının Sədri Akiko Santo ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, yaponiyalı həmkarını salamlayan Milli Məclisin Sədri "Tokio-2020" 32-ci Yay Olimpiya Oyunlarının uğurla başa çatması münasibətilə AkikoSantonu təbrik edib. Milli Məclisin Sədri Azərbaycanın Yaponiya ilə əlaqələrin inkişafında maraqlı olduğunu və bu sahədə yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsinin mühüm rol oynadığını diqqətə çatdırıb.

Qeyd edilib ki, iki ölkə arasında bir çox sahələri əhatə edən münasibətlər uğurla inkişaf edir. Ölkələrimiz arasında imzalanmış çoxsaylı sənədlər əməkdaşlığımızın hüquqi bazasını formalaşdırıb.

Görüşdə Azərbaycan və Yaponiya parlamentləri arasında münasibətlərə toxunan Sahibə Qafarova hər iki ölkənin parlamentində fəaliyyət göstərən qarşılıqlı əlaqələr üzrə işçi qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Sahibə Qafarova bölgədə yaranmış yeni reallıqlar, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbə, ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın icrası istiqamətində ölkəmizdə görülən işlər barədə həmkarına ətraflı məlumat verib. Həmçinin Ermənistanın regionda sülh və sabitliyin təmin olunmasına əngəl törədən təxribatları barədə də həmkarını məlumatlandırıb.

Milli Məclisin Sədri Sahibə Qafarovanı salamlayan Yaponiya Parlamentinin Müşavirlər Palatasının Sədri Akiko Santo ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. O, Azərbaycanla Yaponiya arasında bir çox sahələrdə olduğu kimi, parlamentlərarası münasibətlərin inkişafı üçün də böyük potensialın olduğunu qeyd edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə tərəflər bir-birilərini qarşılıqlı səfərlərə dəvət ediblər.

# Milli Məclisin Sədri Vyanada Polşa Senatının Sədri ilə görüşüb

Avstriyanın paytaxtı Vyanada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 7-də Polşa Senatının Sədri Tomas Qrodzki ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Sahibə Qafarova Azərbaycanla Polşa arasında əlaqələrin inkişafından söz açıb. Ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində dövlət başçıları və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin, tərəflər arasında imzalanan sənədlərin əhəmiyyətini vurğulayan Milli Məclisin Sədri S.Qafarova Azərbaycan və Polşanın bir çox sahələrdə uğurlu əməkdaşlıq münasibətlərinə malik olduqlarını qeyd edib.



Ölkəmizin Polşa ilə əlaqələrin inkişafına əhəmiyyət verdiyini bildirən S.Qafarova qanunverici orqanlar arasında da münasibətlərin mövcud səviyyəsindən razılığını ifadə edib.

Görüşdə 44 günlük Vətən müharibəsindən və ötən ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanatdan sonra bölgədə yaranmış yeni reallıqlardan söz açan Sahibə Qafarova həmkarının diqqətinə çatdırıb ki, 2020-ci ildə Azərbaycan öz gücü hesabına torpaqlarını Ermənistan işğalından azad edərək ərazi bütövlüyünü bərpa etdi. Ölkəmiz bununla da BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını təmin etdi. Münaqişənin artıq tarixə çevrildiyini bildirən Milli Məclisin Sədri ölkəmizin bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin edilməsində maraqlı olduğunu, bu istiqamətdə lazımi addımları atdığını vurğulayıb. O, Azərbaycanın işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinə başladığını diqqətə çatdırıb. Bununla belə, S.Qafarova Ermənistanın hələ də təxribatlarını davam etdirdiyini və sabitliyə mane olduğunu vurğulayaraq, işğalçı ölkə tərəfindən törədilən təxribatları həmkarının diqqətinə çatdırıb.

Polşa Senatının Sədri Tomas Qrodzki parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsindən, ikitərəfli səfərlərin intensivləşməsinin vacibliyindən danışıb. Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayan Tomas Qrodzki bölgədə sülhün və sabitliyin təmin edilməsinin vacibliyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə olunub.

# Milli Məclisin Sədri beynəlxalq konfransda Azərbaycanın COVID-19-a qarşı mübarizəyə dair qlobal təşəbbüsləri barədə çıxış edib

Milli Məclisin Sədri Sahibə Qafarova Avstriyanın Vyana şəhərində keçirilən Parlament Sədrlərinin V Ümumdünya Konfransında "COVID-19 pandemiyasına qlobal cavab multilateralizmin insanlara yardımını çətinləşdirir" mövzusunda müzakirələrdə çıxış edib.




AZƏRTAC xəbər verir ki, COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin səylərinin artırılmasına böyük ehtiyac olduğunu bildirən Sahibə Qafarova ölkəmizin bu pandemiyaya qarşı mübarizədə qlobal miqyasda irəli sürdüyü təşəbbüslər və həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan COVID-19 pandemiyasının fəsadlarının aradan qaldırılması istiqamətində qlobal səylərə töhfə vermək məqsədilə Qoşulmama Hərəkatının sədri qismində 2020-ci ilin mayında Hərəkatın COVID-19-a qarşı Təmas Qrupunun videokonfrans formatında Zirvə görüşünü təşkil edib. Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsini təklif edib. Həmin təşəbbüs ümumilikdə BMT-yə üzv olan 150-dən çox dövlət tərəfindən dəstəklənib və 2020-ci ilin dekabrında Nyu Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyası baş tutub.



Milli Məclisin Sədri bildirib ki, Azərbaycan bəzi ölkələrin ehtiyaclarından qat-qat artıq peyvənd tədarük etməsini açıq şəkildə qınayıb. Azərbaycan bu məsələni gündəmdə saxlamaq məqsədilə BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər çıxışının təmin edilməsinə dair qətnamə layihəsi irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib: "Eyni zamanda biz hər fürsətdə inkişaf etmiş ölkələri, habelə beynəlxalq donor təşkilatlarını ehtiyacı olan ölkələrə pandemiya ilə mübarizə sahəsində yardım etməyə çağırırıq".

S.Qafarova nəzərə çatdırıb ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı edib.

O, xatırladıb ki, COVID-19 pandemiyası qlobal təchizat zəncirinə görünməmiş dərəcədə təsir göstərib. Nəqliyyat və ticarətin asanlanlaşdırılması vasitəsilə, o cümlədən rəqəmsal texnologiyalardan istifadə etməklə bağlılığın təşviqi və multimodal nəqliyyat dəhlizlərinin inkişafı qlobal təchizat zəncirinin dayanıqlılığını möhkəmləndirəcək və pandemiyasonrası bərpa səylərində dövlətlərə kömək edəcək. Spiker deyib ki, Azərbaycanın transregional nəqliyyat layihələri bu məqsədlərə öz töhfəsini verəcək.

Azərbaycanın postpandemiya dövrü üçün güclü, məqsədyönlü və əlaqələndirilmiş addımların atılması istiqamətində bir sıra təkliflər irəli sürdüyünü xatırladan Milli Məclisin Sədri deyib ki, Qoşulmama Hərəkatının pandemiyadan sonra bərpa dövrünə dair mövqeyinin formalaşdırılması məqsədilə Hərəkata üzv dövlətlərin yüksək səviyyəli iclasının keçirilməsi də həmin təkliflər sırasında yer alır. Azərbaycan həmçinin Qoşulmama Hərəkatı tərəfindən COVID-19 pandemiyasından sonra qlobal bərpaya dair BMT-nin Yüksək Səviyyəli Panelinin yaradılması təşəbbüsü ilə çıxış edilməsini də məqsədəmüvafiq hesab edir. Həmin panel dünyanın pandemiyadan daha uğurlu və tez çıxması üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər.

# Biz birlikdə güclüyük!

## Təhsil naziri 2021-2022-ci tədris ilinin təşkilinə dair sualları cavablandırıb




Sentyabrın 7-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə 2021-2022-ci tədris ilinin təşkilinə dair brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə təhsil naziri 2021-2022-ci dərs ilində ölkəmizin bütün təhsil müəssisələrində tədrisin mərhələli şəkildə ənənəvi təşkil olunacağını qeyd edib. O, bildirib ki, ümumi təhsil müəssisələrinin I-IV sinifləri sentyabrın 22-dən ənənəvi şəkildə tədrisə başlayacaq. Sentyabrın 29-dan isə ümumi təhsil müəssisələrinin bütün sinifləri üzrə, eləcə də məktəbdənkənar, peşə, orta ixtisas və ali təhsil müəssisələrində tədrisə ənənəvi şəkildə start veriləcək.

Nazir bildirib ki, tədrisin gec başlaması ilə əlaqədar olaraq keçirilməyən dərs saatları tədris ili ərzində tətil günləri hesabına bərpa olunacaq.

Brifinqdə bütün təhsil müəssisələri və təhsil işçilərinin ənənəvi tədrisə tam hazır olduğu qeyd edilib, həmçinin təhsil müəssisələrində COVID-19 əleyhinə görüləcək tədbirlərdən danışılıb. Brifinqdə təhsil işçilərinin vaksinasiyasına da toxunulub. Bildirilib ki, hazırda təhsil işçilərinin 169 min 862 nəfəri vaksin olunub. 138 min 654 nəfər təhsil işçisi vaksinin hər iki dozasını qəbul edib.

# Peyvəndləmədə iştirak, qaydalara və tövsiyələrə əməl etmək sağlamlığı qorumaq üçün vacibdir

*Əvvəli 1-ci səh.*

Toya gələnlərlə görüşüb öpüşməyə, nəfəs-nəfəsə dayanıb söhbət etməyə, digər bu kimi davranışlara yol verməmək lazımdır. Həkimlər, ekspertlər, hətta COVID-ə yoluxaraq ağır vəziyyətə düşmüş insanlar durmadan həyəcan təbili çalırlar ki, sağlamlığınızın qayğısına qalın, özünüzü, ailənizi bu gözəgörünməz bəladan qoruyun. Axı biz ağıllı, şüurlu, hər şeyi görüb-götürmüş insanlarıq, qaydalara əməl etməliyik. Dünyanın bir çox ölkələrində insanlar peyvəndləməyə möhtac qaldıqları halda bizdə hökumət, Azərbaycanın dövlət başçısı ölkə əhalisinin bu bəladan minimum itki ilə qurtulması üçün nə lazımdırsa edir. Xəstəxanalar, poliklinikalar, hətta xüsusi avtobuslarla həkim briqadaları həyətlərə gəlib insanlara ödənişsiz dövlət hesabına vaksin vururlar, maarifləndirici tövsiyələr verirlər. Bəs bunun müqabilində bizlərdən tələb edilən nədir? Cavab birdir: vətəndaş məsuliyyəti! Əgər insanlar bu məsuliyyəti dərindən dərk etsələr və həkimlərin dedikləri kimi qaydalara əməl etsələr, ilk növbədə yanındakının, ətrafındakının qayğısına qalmalı, onu yoluxmadan qorumalıdır.



Əhali arasında söhbətlərdən o da məlum olur ki, yoluxma və ölüm hallarının çoxalmasına səbəb bəzi insanların vaksinasiyaya laqeyd yanaşması, peyvənd olunmamasıdır. Xəstəxanalardan alınan məlumatlarda da bu həqiqət özünü göstərir.

Həkim-terapevt Həsən Məmmədov deyir: "Bütün günü ya telefonla, ya da iş yerimdə insanlarla, xəstələrlə əlaqədəyəm, görünən odur ki, ölkəmizdə vaksinasiya olunmayanlar çoxdur. Nədənsə çoxları "SinoVac" vurdurmaq istəmir. Niyə, nə səbəbə, özləri də tam bilmirlər. Gedib "Pfizer" üçün növbəyə dayanırlar, bu da bəzən 1 ay çəkir. Hamı bilməlidir ki, hər iki vaksin Dünya Səhiyyə Təşkilatı tərəfindən qeydiyyatdan keçib, məsləhət bilinib. Hansınasa şübhə ilə yanaşmağa, ehtiyat etməyə lüzum yoxdur. Əlbəttə, hər bir məntəqədə "Pfizer" vurdurmaq üçün şərait yaradılsa, hamı da gedib orada vaksin olunar və növbələr bir-birini əvəzləməz. Nəticədə vaxt keçir, növbə çatana qədər də şəxs yoluxur. 60 faiz yoluxma halı ilə xəstəxanaya gələn çoxlu insanlar var. Onlar da yoluxmanın artmasına səbəb olur. Odur ki, vaksinasiyaya getmək lazımdır.

Həkim onu da bildirdi ki, yoluxmaların artmasının daha bir səbəbi maskanın taxılmaması və ya ondan düzgün istifadə edilməməsi ilə bağlıdır. Bir neçə gün bundan əvvələ kimi avtobusda hər 10 nəfərdən doqquzu maskasız olurdu. Maska taxılmırsa, deməli, virusa yoluxma qaçılmazdır. Hər gün neçə-neçə xoşagəlməz hallarla üzləşən, məyusedici xəbərlər eşidən insanlar artıq görür və inanırlar ki, yoluxma artır, ölüm halları çoxalır, Odur ki, maskadan istifadə etməyə, vaksinasiya olunmağa başlayırlar. Maskanın kütləvi taxılmasına əməl edilsə, vaksinasiya sürətlə aparılsa, təbii ki, yoluxmada azalmalar olacaq. Yoluxmaların artmasının mövsümlə əlaqəsi yoxdur. Onsuz da havalar neçə vaxt idi ki, qızmar keçirdi, istilər indi-indi səngiyr. Bütün hallarda gigiyenik qaydalara ciddi əməl etmək lazımdır.

Sentyabrın 15-nə sayılı günlər qalır. Qarşıda ümumtəhsil müəssisələrinin açılması gözlənilir. Ənənəvi təhsili bərpa etməyin inamlı və təhlükəsiz yolu da vaksinasiyadan keçir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***







## Göygöl rayonunda vətəndaşlara vaksinasiya olunmalarına dair saxta sənədlərin verilməsi ilə bağlı cinayət işi başlanıb

Göygöl Rayon Mərkəzi Xəstəxanasının Ailə Sağlamlıq Mərkəzində bəzi şəxslərə COVID-19 əleyhinə vaksinasiya edilmələri ilə bağlı saxta sənədlərin verilməsi barədə daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılıb.

Göygöl Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, aparılmış araşdırmalarla həmin tibb mərkəzinin böyük tibb bacısı Ülviyyə Quliyevanın xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlük əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən istifadə edərək bir neçə şəxsin COVID-19 əleyhinə peyvənd olunmadığı halda onların I və II doza vaksin olunmalarına dair tibbi sənədlər tərtib edərək həmin məlumatları elektron məlumat bazasına yerləşdirməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda yuxarıda göstərilən cinayət əməllərinin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyənləşdirilməsi məqsədilə intensiv istintaq hərəkətləri davam etdirilir.

## Azərbaycanın və Türkiyənin sualtı hücum və müdafiə qruplarının birgə təlim-məşqləri davam edir




Azərbaycanın və Türkiyənin sualtı hücum və müdafiə qruplarının birgə təlim-məşqləri davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin növbəti mərhələsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları qardaş ölkənin hərbi qulluqçuları ilə birlikdə əməliyyatların planlaşdırılması, şərti düşmənin terror-diversiya qrupunun zərərsizləşdirilməsi və onların müvəqqəti bazasının məhv edilməsi üzrə döyüş atışlı təlim tapşırıqları yerinə yetiriblər.

Katerlərin də iştirakı ilə keçirilən təlim-məşqlərdə şərti düşmənin hədəfləri məhv edilərək qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

## "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimləri davam edir




Türkiyə Respublikasının Konya şəhərində keçirilən "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimləri davam edir. Təlimin planına uyğun olaraq, Azərbaycan və Türkiyə hərbi təyyarəçiləri gündüz döyüş uçuşları həyata keçiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, uçuşlardan öncə əməliyyatın planı, hava şəraiti və digər texniki məsələlərlə bağlı brifinq keçirilib.

Plana uyğun olaraq, Azərbaycan və Türkiyə hərbi təyyarəçiləri birgə əməliyyat çərçivəsində havadan hücumla şərti düşmənin hava hücumundan müdafiə vasitələrini, strateji obyektlərini və bu obyektləri müdafiə edən təyyarələrini məhv etmək tapşırığını uğurla yerinə yetiriblər.

Qeyd edək ki, Azərbaycan hərbi təyyarəçiləri təlimə "Su-25" hücum və "MİQ-29" qırıcı təyyarələri ilə qatılıblar.

Təlimlər sentyabrın 17-dək davam edəcək.

## "Beynəlxalq Ordu Oyunları - 2021" yarışlarında iştirak edən Azərbaycan heyəti Moskvadan Bakıya qayıdıb

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən "Tank biatlonu" və "Mədəniyyət Ordusu" müsabiqələrində iştirak edən komandalarımız Bakıya qayıdıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, müsabiqələrdə uğurla çıxış edən Azərbaycan hərbçilərinin qarşılanma mərasimi hərbi orkestrin müşayiəti ilə keçirilib.

Qeyd edək ki, Azərbaycan hərbçiləri "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Rusiyada "Tank biatlonu" və "Mədəniyyət Ordusu", İran İslam Respublikasında "Dəniz kuboku", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" müsabiqələrində iştirak edərək yüksək nəticələr göstərib.

***AZƏRTAC***

# Başlıbel faciəsi zamanı qətlə yetirilənlərin ekshumasiya edilmiş cəsədləri əvvəlki yerində dəfn olunub

Kəlbəcərin işğalı zamanı Ermənistan silahlı qüvvələrinin 1993-cü il aprelin 18-də Başlıbel kəndində dinc əhaliyə qarşı törətdiyi kütləvi qətllər Baş Prokurorluğun apardığı istintaqla rəsmi təsdiqini tapıb. Cinayət işinin istintaqı zamanı kənddə mülki əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq nümayiş etdirildiyi sübuta yetirilib.

AZƏRTAC xəbər verir ki, Başlıbeldə qətlə yetirilənlərdən 12 nəfərin cəsədi 44 günlük müharibədən sonra, bu ilin aprelində ekshumasiya edilərək Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə gətirilərək müvafiq istintaq hərəkətləri aparılmışdı. Faciə qurbanlarının meyit qalıqlarından və həmin şəxslərin ailə üzvlərindən götürülmüş DNT analizlərinin, molekulyar-genetik və digər xüsusatların araşdırılması üçün tibbi-kriminalistik ekspertizaların nəticələri onların erməni hərbçiləri tərəfindən güllələnərək qətlə yetirildiyini təsdiqləyib.

Dörd ay davam edən istintaqdan sonra ekshumasiya edilmiş cəsədlərin əvvəlki yerinə qaytarılması və orada dəfn edilməsi barədə qərar qəbul olunub. Azərbaycan bayrağına bükülmüş cənazələr əvvəlki yerində dəfn olunmaq üçün Başlıbel kəndinə yola salınıb. Dəfn mərasimində faciə qurbanlarının ailə üzvləri ilə yanaşı, qətliama şahidlik etmiş kənd sakinləri də iştirak ediblər.

Xatırladaq ki, 1993-cü il aprelin 3-də Ermənistan silahlı qüvvələri Başlıbel kəndinə silahlı hücum edərək kənd sakinlərinə məxsus evləri kütləvi surətdə qarət edib və tamamilə yandırıb. Kəndi tərk edə bilməyən 62 nəfər təxminən 3 kilometr aralıda, kəndin ən hündür hissəsində yerləşən "Portda" adlanan dağ relyefli ərazidəki təbii mağaralara sığınıb. Həmin 62 nəfərdən 48-i Başlıbel, 1-i Taxtabaşı kəndlərinin, 4-ü Laçın rayonu sakini, 9 nəfər isə kəndi müdafiə edən hərbi qulluqçular olub.

Törətdiyi vəhşiliklə kifayətlənməyən Ermənistan silahlı qüvvələrinin avtomat və iriçaplı silahlarla silahlanmış ünsürləri öz azğınlıqlarını davam etdirərək 1993-cü il aprelin 18-də silahsız mülki şəxslərin doğma kəndlərində qayalara sığındığı yerləri axtararaq aşkarlayıb, köməksiz vəziyyətdə qalmış mülki şəxslərin gizləndiyi mağaraları həmin gün saat 15-dən 21 radələrinədək atəşə tutmağa başlayıblar. Nəticədə silahsız, hər hansı müqavimət göstərmək imkanına malik olmayan 12 nəfər (1-i 12 yaşlı uşaq, 1-i 16 yaşlı yeniyetmə, o cümlədən 6 qadın və 6 kişi olmaqla) - 63 yaşlı Səmədov Yaqub İsa oğlu, 54 yaşlı Əhmədova Büsat Əliş qızı, 12 yaşlı Əhmədova Zövqiyyə Binnət qızı, 60 yaşlı Əmralıyev Məhəmməd Abış oğlu, 29 yaşlı Əmralıyev Surxay Məhəmməd oğlu, 21 yaşlı Əmralıyev Çingiz Məhəmməd oğlu, 16 yaşlı Əmralıyeva Aygün Məhəmməd qızı, 67 yaşlı Həsənova Çiçək Mikayıl qızı, 68 yaşlı Cəfərova Gülara Cəfər qızı, 95 yaşlı Cəfərova Gülgəz Qədim qızı, 22 yaşlı Abdullayev Vüqar İsa oğlu və 52 yaşlı Əsgərov Əhliman Əvəz oğlu sığındıqları yerdə qəsdən öldürülüblər.

Hücum nəticəsində 14 nəfər - 93 yaşlı Babayeva Kubra Qədim qızı, 23 yaşlı Əmralıyeva Arzu Binnət qızı, 56 yaşlı Əhmədov Binnət Əbdüləli oğlu, 13 yaşlı Əhmədov Niyyət Binnət oğlu, 15 yaşlı Əhmədova Şərqiyyə Binnət qızı, 56 yaşlı Əmralıyeva Zibeydə Abış qızı, 67 yaşlı Həsənova Leyli Əli qızı, 58 yaşlı Həsənova Mərmər Cavad qızı, 63 yaşlı Həsənova Şamama Hüseyn qızı, 36 yaşlı Həsənova Zeynəb Mahmud qızı, 63 yaşlı Qasımova Tutu Alı qızı, 2 yaşlı Məhəmmədov Hökmdar Surxay oğlu, 73 yaşlı Yusifova Şamama Ağa qızı və 65 yaşlı Mənsimov Hüseyn İbrahim oğlu girov götürülüb. Həmin şəxslər sonradan girovluqdan azad edilsələr də, onlardan 9-u aldıqları mənəvi və psixoloji sarsıntılardan vəfat ediblər.

İstintaq materialları ilə həmçinin müəyyən olunub ki, cinayətkar qruplaşmanın üzvlərinin əlindən digər mağaralara qaçaraq gizlənən və vəhşilərdən canını qurtarmağa çalışan 36 şəxsdən 7 nəfəri də, mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişiblər.

Sağ qalmış Başlıbel kənd sakinləri sonrakı tarixlərdə iki qrupa bölünməklə müxtəlif mağaralarda gizlənib, həyatları üçün yaranmış təhlükələrə baxmayaraq, 1993-cü il mayın 12-də gecə saatlarında həmyerlilərinin qətlə yetirildiyi mağaraların yanına yaxınlaşıb, odlu silahlarla qətlə yetirilmiş 12 nəfərin meyitlərini paltarlı vəziyyətdə iki cərgə (hər cərgədə 6 qəbir olmaqla) qəbirlər qazmaqla dəfn etdikdən sonra hadisə yerindən uzaqlaşıblar.

1993-cü il aprelin 19-dan sonrakı tarixlərdə isə sağ qalmış 29 nəfər 113 gün mühasirə həyatı yaşadıqdan sonra çətin dağ relyefinə malik yollarla Kəlbəcər rayonunun Çaykənd kəndinə, oradan Tərtər çayını və Qoşqar dağını keçməklə Daşkəsən rayonu istiqamətində meşələrlə irəliləyərək iyul ayında Daşkəsən rayonunun Zivlən kəndinə çatmaqla həyatlarını xilas edə biliblər.

Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, 2021-ci il aprelin 24-də Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilib və 50 santimetr dərinlikdə torpağa basdırılmış, kəskin çürüməyə məruz qalaraq skletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkarlanıb. Bundan başqa, istintaq hərəkəti zamanı cinayət hadisəsinin baş verdiyi yerdə mülki şəxslərin gizləndiyi mağaralarda aşkarlanmış müxtəlif məişət əşyaları, mülki şəxslərin qəsdən öldürülməsini sübut edən giliz və güllələr cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən qablaşdırılaraq rəsmiləşdirilib.

# Elm uğruna yaşanan ömür - Aziz Sancar həyatının 75-ci baharında!




1946-cı ilin 8 sentyabrında Türkiyə Respublikasının Mardin vilayətinin Savur mahalında dünyaya göz açan Aziz Sancarı ailəsi və yaxınlarından başqa kimsə tanımasa da, indi bütün dünya onun şəxsiyyətini dərin ehtiramla xatırlamaqdadır. Çünki onun həyat yolu bir çox insan üçün həm də əzmkarlıq və uğur hekayəsidir. Bu hekayəyə bələd olanlar isə Aziz Sancarın qazandığı nailiyyətlərin heç də təsadüfi olmadığına, pərdə arxasında böyük zəhmətin və elmə olan sevginin dayandığına əmindirlər.

Aziz Sancarın həyatı və Nobelə gedən hekayəsi elə özünün dediyi kimi, gəncləri elmə təşviq etmək, "mümkünsüzü mümkün etmək" amalı daşıyır. Hər çıxışında türk dünyasına olan sevgisini dilə gətirən, vətənsevərliyini və milli təəssübkeşliyini qeyd edən elm fədaisinin yeni-yeni nailiyyətlərə imza atacağı, gəncləri elm yolunda yetişdirməkdə davam edəcəyi aşkardır.

İbtidai, orta və lisey təhsilini doğulub böyüdüyü Mardində alan Aziz Sancar, ailəsinin təhsilə nə qədər önəm verdiyini daim vurğulayır. Heç şübhəsiz ki, elmə sevginin də başlanğıc nöqtəsi elə bu idi. O, 1963-cü ildə İstanbul Universitetinin Tibb fakültəsinə daxil olmuş və 1969-cu ildə bu fakültəni uğurla bitirmişdir. Müsahibələrində bu universitetin onun nəzəri biliklərə sahib olmasına çox mühüm rolu olduğunu vurğulaması və Nobel mükafatının bir nümunəsini də məhz İstanbul Universitetinə hədiyyə etməsi bir elm dühasının üzərində zəhməti olanlara göstərdiyi böyük diqqətin və vəfa borcunun təzahürüdür.

Elm yolunda əmin addımlarla irəliləyən Sancar 1973-1977-ci illərdə ABŞ-da, Dallasda yerləşən Texas Universitetində məşhur alim Claud Rupertin laboratoriyasında molekulyar biologiya proqramı üzrə doktorantura təhsili almış və 1977-ci ildə doktorluq dərəcəsini qazanmışdır.

Sancar İstanbul Universitetini bitirdikdən sonra ilk əmək fəaliyyətinə böyüdüyü Mardin vilayətində həkim kimi başlamışdı. Onun üçün əziz olan torpaqlara dönmək və insanlara yardım etmək həvəsi bu fədakar və vətənpərvər insanda əsl "bəşəri alim" xarakterini büruzə verdi. Xatirələrində ən xoşbəxt günlərinin məhz bu illərdə həkimlik etdiyi günlər olduğunu bildirəndə, yardımsevərliyin insana qazandırdığı mənəvi dəyəri duymuş oluruq.

Həyatının axışı ona təhsilini genişləndirmək üçün yeni bir üfüqlər açır. 1977-ci ildə Texas Universitetində doktorantura təhsilini başa vurduqdan sonra 1977-1982-ci illərdə postdoktorantura tədqiqatçısı və dosent kimi ABŞ-ın Yale Universitetində çalışmağa davam edir. 1982-ci ildən isə gələcəkdə ona Nobel mükafatı qazandıracağı ali təhsil müəssisəsinə - ABŞ-ın Şimali Karolina Universitetində fəaliyyətə başlamış və hazırda bu universitetin Tibb Məktəbinin Biokimya və Biofizika üzrə Sarah Graham Kenan professoru və laboratoriya rəhbəri vəzifələrində fəaliyyətini davam etdirir.

Biokimya və biofizika sahəsində araşdırmalar aparan Aziz Sancar hələ doktoranturada oxuyarkən çox əhəmiyyətli kəşf olan "Maxicell" metodunu icad etmiş və ABŞ-da gen mühəndisliyi sahəsini inkişaf etdirən azsaylı alimlər sırasına qoşulmuşdur. DNA təmiri və bioloji saatın tənzimlənməsi sahələrində fundamental araşdırmalar aparan Sancar elmdə altı mühüm kəşfin müəllifidir. Onun bu kəşfləri gen mühəndisliyi və xərçəng xəstəliyinin müalicəsi sahələri üçün çox geniş imkanlar açmaqla, bütövlükdə bəşəriyyətin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. O, 2015-ci ildə DNA təmiri sahəsində araşdırmalarına görə kimya üzrə Nobel mükafatına layiq görülmüşdür. Hazırda nüfuzlu ABŞ Milli Elmlər Akademiyasının üzvü olan üç türkdən biri (birincisi) və elm sahəsi üzrə Nobel mükafatı alan ilk türkdür.

Aziz Sancarın türk dünyasına olan sevgisi və diqqəti göz önündədir. Hər fürsətdə türkdilli ölkələrə səfərlər edərək təhsil müəssisələrinin kollektivləri ilə görüşlər keçirməsi, tələbələrə nəsihətlər verməsi elm yolunda irəliləyənlərə ilham mənbəyi olur. Bu minvalla 2017-ci ildə UNEC-in dəstəyi ilə Azərbaycana səfəri çərçivəsində UNEC-də "Aziz Sancar: bir elm fədaisinin həyat hekayəsi" adlı konfransda çıxışında səsləndirdiyi fikirlər "Nobelə gedən yol"un nə qədər çətin və məşəqqətli, amma bunun verdiyi qürurun hər şeydən üstün olduğunu göstərdi.

Aziz Sancarın şəxsən özü tərəfindən qələmə alınmış və Nobel Fondu tərəfindən nəşr edilən "Aziz Sancarın Nobel bioqrafiyası" Azərbaycan dilində nəfis şəkildə çap edilərək elm ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Əsəri mütaliə edənlər Aziz Sancarın bütün bu çətinliklərin və məşəqqətlərin öhdəsindən necə böyük əzm və ustalıqla gəldiyinin, dünya elminə dəyərli töhfələr verdiyinin şahidi olur.

Aziz Sancarın həyat və fəaliyyəti, fikirləri hər bir elm adamı üçün çox faydalı təcrübələr və mesajlarla zəngindir. Onun elmi karyerasına nəzər yetirdikdə, ilk növbədə, qarşımıza böyük zəhmət və səbir hesabına yüksək performans nümayiş etdirən bir elm adamının karyerası çıxır. 420-dən çox elmi məqaləyə, 33 mindən çox elmi istinada malik olan, Hirş indeksi isə 135-ə çatan Aziz Sancar fotoliyaz təmir mexanizmini kəşf etmək üçün 40 il, DNA ikili kəsim mexanizmini kəşf etmək üçün 35 il, kriptokrom və period proteinlərinin funksional mexanizmini kəşf etmək üçün isə 16 il zaman sərf etmişdir. Hazırda bioloji saat üzərində tədqiqatları davam etdirən Sancar bu sahəyə də 20 ildən artıqdır ki, zaman sərf edir. Bütün bu dövr ərzində Sancarın sərf etdiyi əməyin intensivliyinə baxdıqda isə, özünün də qeyd etdiyi kimi, çox vaxt həftədə orta hesabla 70 saatdan çox çalışdığı meydana çıxır. O, fotoliyaz fermenti üzərində 40 il araşdırma aparmaqla bu sahədəki tədqiqatlara yekun vurmuş və həmin sahəni o qədər dərinləşdirmişdir ki, artıq elmi ədəbiyyatlarda fotoliyaz fermenti "Sancar fermenti" kimi də ifadə edilir. Elə məhz bunlara görədir ki, Yale Universitetində çalışdığı zaman laboratoriya rəhbəri olmuş professor Dean Rupp Sancarı işinə fədakarlığın çox yaxşı nümunəsi adlandırır.

Aziz Sancarın ən təqdirəlayiq xarakterlərindən biri də məhz insanlığa xidmətidir. O, elmin fədakarlıq və bəşəri faydaya dayanan könül işi olduğuna daim diqqət çəkir. Aziz Sancar elmə və tədqiqata o qədər könül vermiş adamdır ki, Nobel mükafatını aldıqdan sonra da mükafatdan gələn gəlirləri xeyriyyə işlərinə ötürür, özü isə mənəvi qazanclarla kifayətlənir. Çünki onun elm yolu "Nobel almaq üçün tədqiqat aparacağam" deyil, "insanlıq üçün, cəmiyyət üçün nəsə etmək"dir. Bu gün Aziz Sancarı necə təsvir edərsiniz deyildiyində düşünmədən "həyatı boyu çox, hədsiz çox çalışmış və kəşfləri ilə insanlığa xidmət etmiş bir vətənsevər alim" kimi qeyd etmək olar.

Aziz Sancar üçün universitetlərin gələcəyin alimlərinin yetişdirilməsində mühüm yerə malik olduğunu xüsusi vurğulayır. Bu baxımdan o, İstanbul Universitetindəki müəllimlərinin onun elm yolunu seçməsindəki rolunu hər zaman yüksək qiymətləndirir. Buna görə də bu gün inkişaf etmək istəyən cəmiyyətlərdə universitetlərin təkcə elm öyrədən, araşdırma aparan qurumlar deyil, ilk növbədə, elm sevgisi və mədəniyyəti aşılayan qurumlar olmaları zəruriliyi öz aktuallığını qoruyur.

Aziz Sancar elmdə ona yol göstərən, dəstəyi ilə ilham verən şəxsləri də qətiyyən unutmur. O, Texas Universitetində doktoranturada oxuyarkən elmi rəhbəri olmuş professor Claud Rupert haqqında həmişə çox böyük minnətdarlıq hissiylə danışır. Onu özünün peşə həyatında ən təsirli insan hesab edərək, elmi rəhbərlik xüsusiyyətlərini belə ifadə edir: "Mənim üstün olduğum tərəflərimi və yetərsizliklərimi anlamışdı. Məni ürəkləndirdi, tövsiyələr verdi və mənə doğru yol göstərdi. Ancaq hamısından önəmlisi öz fikirlərimi formalaşdırmamda və bunları test etməmdə mənə sərbəstlik verdi. Bir elm adamı və alicənab olaraq mənim peşə həyatımda ən təsirli insandır". Ancaq Aziz Sancar da belə bir insanın əməyini yerdə qoymur, onun tərəfindən kəşf edilən fotoliyaz fermenti üzərində tədqiqatlarını 40 il davam etdirir, bu sahədəki tədqiqatlara yekun vurur və Nobel mükafatı alır. Aziz Sancar heç vaxt müəllimini unutmur və Nobel mükafatını aldıqdan sonra ilk telefon edib sevincini bölüşdüyü şəxslərdən biri məhz 97 yaşlı professor Rupert olur.

Aziz Sancar üçün hər bir araşdırması və ixtirası maddi dəyəri olmayan, mənəvi sərvətdir. Sanki onun həyatdan aldığı zövqün qayəsində kəşfləri və bu kəşflərin qazandırdığı faydalardır. Bildirirdi ki, gələcək nəsil türk tədqiqatçıları biokimya və molekulyar biologiya dərslərində bunu görərək "bu kəşfi bizdən biri etdi" deyə biləcəklər və daha da ruhlanacaqlar. Onlarda bu güvəni yaratmaqla məmləkətinə sədaqətini bir daha sübut etmiş olur.

Həqiqətən də insanın uzunmüddətli elmi axtarışlarının uğurlu nəticələri olan elmi kəşflərin onda yaradacağı mənəvi rahatlıq və güvən hissinin hər hansı maddi ölçüsünün tapılması çətindir, bəlkə də heç mümkün deyildir. Aziz Sancarda isə bu hissə millət və məmləkət sevgisi də əlavə olunur ki, bu da qeyd olunan məsələni tamamilə mümkünsüz edir.

Professor Aziz Sancar ilk türk kimi elm üzrə Nobel mükafatını almaqla Azərbaycan da daxil olmaqla, bütövlükdə Türk dünyasının dünya elminin zirvəsində təmsil olunmasını təmin etmişdir. Aziz Sancar kimya üzrə Nobel mükafatını alana qədər biz hər zaman məlum xalqların nümayəndələrinin bu mükafatı almasından danışırdıq. Ancaq Aziz Sancar, "Nobel bioqrafiyası"nda da işarə etdiyi kimi, bütün dünyaya sübut etdi ki, türk millətindən də belə alimlər çıxa bilər və bu, heç kimdə təəccüb doğurmamalıdır. Elə məhz buna görədir ki, bu gün bütün türk ellərində Aziz Sancar adı çox böyük sevgi, məhəbbət, ehtiramla çəkilir və müxtəlif formalarda əbədiləşdirilir.

Aziz Sancar vətəninin və millətinin yüksəlişinə böyük önəm verən, milli qürur və ləyaqəti daim öndə tutan həqiqi bir vətənsevərdir.

Sancar bir türk olsa da, bu gün bir ABŞ professorudur və Nobel mükafatını da ABŞ Şimali Karolina Universitetinin professoru kimi almışdır. Ancaq Sancar vətəninə, milli kimliyinə o qədər bağlı insandır ki, Nobel mükafatını aldıqdan sonra dünyada daha çox elm üzrə Nobel mükafatı alan ilk türk kimi tanınmağa başladı.

Nobel mükafatlarının təqdimetmə mərasimində mühüm məqamlardan biri də mükafatı qazananların verdiyi "Nobel dərsi"dir. Sancar bu dərsi də, bir növ, milli məsuliyyət hissi altında verdi. O, UNEC-dəki çıxışında bəyan etdi ki, "Nobel dərsi"ni verdiyim zaman bir anda onları layiqincə təmsil etdiyim üçün bütün Türk dünyasına borcumu ödədiyimi hiss etdim və o an mənim ən xoşbəxt anlarımdan biri idi.

Sancar Nobel mükafatı almasına baxmayaraq, bir alim kimi onun üçün ən böyük mükafatı belə açıqlayır: "Mənim üçün ən böyük mükafat türk tədqiqatçıların biologiya, genetika və ya molekulyar biologiya kitablarında mənim kəşflərimə rast gəlmələri, "bunları bir türk kəşf etdi" demələridir". Bu fikirlərdən açıq şəkildə görünür ki, Sancarın uzunmüddətli və gərgin tədqiqatlarında əsas motivasiya mənbələrindən biri də məhz türk millətinin adını dünya elm xəzinəsinə yazdırma və bu millətin gələcək nəsillərini bu xəzinəni zənginləşdirmə yolunda cəsarətləndirmə istəyidir.

Sancara görə, övladlarımıza uşaq vaxtından elm sevgisi və mədəniyyəti aşılamağa başlamaq lazımdır: "Uşaqlarımıza elmi sevdirmək lazımdır. Uşaqlarımızı fizika, kimya, biologiya və texnologiya sahələrinə təşviq etmək lazımdır. Çox gənc yaşlarında onlarda sınaq keçirmək vərdişi yaratmalıyıq. Sınaq keçirməyə vərdiş edən insan düşünəcək və bu, vərdiş halını alacaq. Bunu bir ənənə halına gətirməliyik. Hər şeyi dövlətdən gözləməməliyik. Bunun məsuliyyəti mühüm dərəcədə də valideynlərin üzərinə düşür".




Övladlarımıza elm sevgisi və mədəniyyəti aşılayacaq olanlar bir tərəfdən valideynlərdirsə, digər tərəfdən də müəllimlərdir. Müəllimlərin cəmiyyətdəki statusu yüksəldilməli, onlara elmli və bilikli nəsil yetişdirmək üçün hər cür şərait yaradılmalıdır. Sancar qeyd edir: "Müəllimlər uşaqlarımızı, sabahın insanlarını yetişdirən şəxslərdir. Onlara daha çox dəyər vermək lazımdır. Dünyaya təkrar gəlsəm, müəllim olmaq istərdim. Çünki gələcəyi onlar qurur, onlar yaradır"

Sancar sadəcə sözdə millətpərvər deyil, eyni zamanda, bu yolda varidatını sərf edən insandır. 2007-ci ildə Vehbi Koç Fondu Sancarı 100 min dollarlıq Vehbi Koç mükafatına layiq görür. Sancar buna 100 min dollar da öz vəsaitini əlavə edir və Şimali Karolinada uzun müddətdir xəyal etdiyi "Türk Evi"ni qurur. O, Nobeldən əldə etdiyi 325 min dollarlıq pul mükafatının da xərcləri çıxdıqdan sonra 315 min dollarını məhz bu evə bağışlayır. Bu gün Şimali Karolinada uğurla fəaliyyət göstərən "Türk Evi" türk tələbələrin qalması üçün istifadə edilir və Türkiyənin tanıtımına xidmət edir. Sancar "Türk Evi"ni yaratmaqla yanaşı, xanımı ilə birlikdə ABŞ-da oxuyan türk tələbələrə yardım etmək və Türkiyə-Amerika əlaqələrini inkişaf etdirmək məqsədilə "Aziz and Gwen Sancar Fondu"nu da yaratmış və hazırda bu fond vasitəsilə bir çox xeyriyyə layihələrini həyata keçirir.

Aziz Sancar elm adamlarına, xüsusilə gələcəyini elmlə bağlayan gənclərə bir sıra tövsiyələrini də çatdırır. O, hər kəsin özünə vaxt ayırmalı olduğunu, oxuduqlarını dərk etmək üçün zamana ehtiyac duyduğunu vurğulayır. Analitik bacarıqların və yaradıcı düşünmənin mühüm kompetensiyalar olduğunu qeyd edir. Əgər elm yolunu tutmusunuzsa, yolun uzun və davamlı çalışma prosesində olacağınızı unutmamaq lazımdır. Bu ərəfədə yaxşı müəllim və məsləhətçilərin zəhmətin bəhrəsini daha effektiv əldə etməyə kömək edəcəyini bildirir. O həm də deyir: "Vətən sevgisi olmasaydı, bu səviyyələrə gələ bilməzdim. Çox çalışın, övladlarınıza da həm çox çalışmağı, həm də vətən sevgisini öyrədin. Məmləkətinə faydalı olan bütün dünyaya faydalı olar. Nobel mükafatı qazanmaqdan daha önəmli şeylər var: insanın ailəsi, insanlıq və ölkəsinə xidmət etməsi".

Aziz Sancarın türk toplumuna və Azərbaycana olan sevgisi bizdə fəxr hissi yaradır. Onun Azərbaycanda elmin və təhsilin inkişafı üçün əlindən gələn yardımı göstərəcəyini vurğulaması gənclərimizə motivasiya qaynağı olmuşdur.

Aziz Sancar Azərbaycana ziyarətindən sonra AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun gənc əməkdaşı Xaqani Eynullazadəni öz laboratoriyasına qəbul etmişdir. Xaqani Eynullazadə laboratoriyadakı təhsil və tədqiqatını uğurla başa vurduqdan sonra Aziz Sancarın dəstəyi ilə ABŞ Viskonsin Universitetinin doktoranturasına qəbul olmuşdur. Hazırda həmin universitetin molekulyar biologiya və genetika üzrə doktorantıdır.

Aziz Sancar 44 günlük Vətən müharibəsini də yaxından izləmişdir. Ermənilərin Gəncəyə xain raket atışları nəticəsində valideynlərini itirən 2 yaşlı Xədicənin gələcək təhsil xərclərini öz üzərinə götürmüşdür. Aziz Sancar bu məqsədlə Azərbaycanın Vaşinqtondakı Səfirliyinə rəsmi olaraq müraciət etmiş və səfirliyin köməyi ilə Xədicənin gələcək təhsil xərclərini qarşılamaq məqsədilə açılmış bank hesabına 50.000 ABŞ dolları köçürmüşdür.

İnanırıq ki, həyatının 75-ci ilini yaşayan dəyərli dostumuz, elm fədaisi və millətsevər Aziz Sancar həm həyat yolunda, həm də elm zirvəsində eyni həyəcanla bəşəriyyət naminə yeni kəşflərə imza atacaq və daim bizləri qürurlandıracaqdır.

**Ədalət MURADOV,**

***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor***

# Azərbaycanın turizm potensialı Rusiyada keçirilən beynəlxalq turizm sərgisində təbliğ olunub

"İşğaldan azad olunmuş ərazilərin turizm potensialından səmərəli istifadə istiqamətində işlər görürük". AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid sentyabrın 7-də Moskva şəhərində keçirilən "OTDYKH Leisure" beynəlxalq sərgi və forumunda "Show Must Go On: Turizmin Gələcəyi, Səyahət Tendensiyaları" mövzusuna həsr olunmuş sessiyada onlayn çıxış edərkən bildirib.

Florian Zenqstşmid çıxışında ATB tərəfindən postpandemiya dövründə turizm sənayesinin bərpası istiqamətində müxtəlifyönümlü tədbirlərin həyata keçirilməsi haqqında məlumat verib.

O, yeni turizm məhsulları və marşrutların inkişaf olunması, turizm infrastrukturunun təkmilləşdirilməsi, Naftalan şəhərinin destinasiya brendinin yaradılması və bu istiqamətdə aparılan işlər, eləcə də Büronun gələcək planları barədə danışıb.

Baş icraçı direktor, həmçinin ölkədə uğurlu vaksinasiya prosesi nəticəsində artıq 42 ölkənin vətəndaş və rezidentləri üçün beynəlxalq sərhədlərin açıldığını, bunun da ölkədə turizm sənayesinin bərpasına müsbət təsir göstərəcəyini bildirib.

Forum çərçivəsində ölkəmizə həsr olunmuş "Azərbaycanın turizm imkanları və yeni marşrutların inkişafı" mövzusunda keçiriləcək sessiyada Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə, Azərbaycan Turizm Bürosunun Beynəlxalq bazarların idarə edilməsi departamentinin direktoru Sevinc Zeynallı, Azərbaycan Hotel Assosiasiyasının Baş katibi Günay Sağlam, "PASHA Travel" şirkətinin nümayəndəsi Sadıx Sadıxov, "Rayda Tour Operator" şirkətindən Veronika Lyubcenko, "Azerbaijan Guide Travel" şirkətindən Nərgiz Məmmədova və "Dağ yəhudiləri" muzeyinin nümayəndəsi İqor Şaulov spiker qismində çıxış edəcəklər.

Dövlət Turizm Agentliyinin turizmin bərpası istiqamətində fəaliyyəti, sərhədlərin açılmasından sonra Rusiya ilə turizmin əlaqələrinin inkişafı, Azərbaycanın əsas turizm məhsulları və yeni marşrutları, Azərbaycanda yeni açılan hotellər və pandemiya dövründə ölkədəki hotellərin qonaq qəbul etmək hazırlığı, Azərbaycanın işgüzar turizminin pandemiya dövründə qarşılaşdığı çətinliklər və bu sahənin bərpa olunması, Rusiyadan olan turistlərə təklif ediləcək Yeni il paketləri və öncədən bronlaşdırma üzrə turoperatorların fəaliyyəti, KİV və turizm agentləri üçün Azərbaycana infoturların təşkil edilməsi, Azərbaycanda multikulturalizm və qastronomik marşrutların müxtəlifliyi mövzularında müzakirələr aparılacaq.

Sentyabrın 9-dək davam edəcək tədbir sərgi və forum formatında iki hissədən ibarət olmaqla təşkil edilib.

27-ci dəfə təşkil olunan forum-sərgidə Azərbaycan tərəfindən "Azərbaycan Hava Yolları" QSC (AZAL), Azərbaycan Hotel Assosiasiyası, Naxçıvan Turizm Departamentinin nümayəndələri, eləcə də 11 yerli turizm şirkəti iştirak edir.




2 mindən çox iştirakçının qatıldığı tədbir çərçivəsində 40 müxtəlif mövzulu sessiyada 15 ölkədən 200-dən çox spikerin çıxış edəcəyi gözlənilir.

Qeyd edək ki, sərgidə Azərbaycan, Moldova, Bolqarıstan, Belarus, Rusiya, Almaniya, İspaniya, Kipr, Misir, Tunis, Hindistan, Şri-Lanka, Çin, Yaponiya, Tailand, Tanzaniya, Braziliya, Kuba kimi 18 xarici ölkədən 350-dən çox şirkətin iştirakı gözlənilir. Hər il keçirilən sərgi turizm təşkilatları və agentliklərinin, turizm üzrə ixtisaslaşmış dövlət və ictimai qurumların nümayəndələrini bir araya toplayır.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İslam İnkişaf Bankı ilə əməkdaşlığın genişləndirilməsi müzakirə olunub

İqtisadiyyat nazirinin müavini Elnur Əliyev Özbəkistanın paytaxtı Daşkənddə keçirilən İslam İnkişaf Bankı (İİB) Qrupunun 46-cı İllik Toplantısı çərçivəsində Bankın yeni seçilmiş prezidenti Məhəmməd Süleyman Əl-Casir və həmkarları ilə görüşüb.

Bankın prezidentinə fəaliyyətində uğurlar arzulayan nazir müavini Azərbaycanın İslam İnkişaf Bankı, eləcə də İİB Qrupuna daxil olan digər qurumlarla əlaqələrə xüsusi önəm verdiyini, Bankın özəl sektorun inkişafı istiqamətində göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb. Elnur Əliyev tarixi və əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin yeni reallıqlar yaratdığını qeyd edib, Qarabağda “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması və “yaşıl enerji zonası”nın yaradılması üzrə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

Bankın prezidenti Məhəmməd Süleyman Əl-Casir Azərbaycanla əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bölüşüb, bankın Azərbaycanda həyata keçirilən layihələrdə iştirakda maraqlı olduğunu ifadə edib.

Görüşdə Azərbaycan İnvestisiya Şirkəti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə tərəfdaşlıq imkanları, Qarabağ Dirçəliş Fondu və İslam İnkişaf Bankının Birgə Fondunun yaradılması və işğaldan azad edilmiş ərazilərimizin bərpası, həmçinin dayanıqlı inkişafı istiqamətində fondun imkanlarından istifadə etməklə birgə layihələrin həyata keçirilməsi, bankın əhatə etdiyi ölkələr üzrə potensial sərmayədarlara Azərbaycan şirkətlərinin investisiya layihələrinin təqdimatı məqsədilə tədbirlərin təşkili və s. məsələlər barədə fikir mübadiləsi aparılıb.

## “Məşğulluq marafonu”na qoşulan işəgötürənlərin sayı 478-ə çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında başladılan “Məşğulluq marafonu”na qoşulan işəgötürənlərin sayı 478-ə çatıb. Onlardan 251-i dövlət, 227-i özəl müəssisələrdir.

“Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi altında keçirilən marafon şəhidlərimizin ailə üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərimizin məşğulluğuna dəstək məqsədi daşıyır.

İşəgötürənlər tərəfindən marafona artıq 2214 vakansiya təqdim edilib. Bu vakansiyalar üzrə işlə təmin olunanların sayı da artaraq 617-ə çatıb ki, onlardan 505-i qazi, 112-si şəhid ailəsi üzvləridir.

Təqdim edilən vakansiyalar üzrə işlərə göndərişlərin verilməsi prosesi davam edir.

## Yerli sahibkarlar üçün onlayn təlim keçiriləcək

Sentyabrın 10-da Azərbaycan Mərkəzi Bankı (AMB), Sahibkarlığın İnkişafı Fondu (SİF) və Bakı Fond Birjası (BFB) tərəfindən yerli sahibkarlar üçün “Qiymətli kağızların buraxılışı və Fond Birjasında listinq” mövzularında onlayn təlim keçiriləcək.

BFB-dən AZƏRTAC-a bildirilib ki, təlimdə kapital bazarı ilə bağlı ümumi məlumat, qiymətli kağızların buraxılışı, onların birjada listinqə alınması proseduru və Listinq Məsləhət Proqramı ilə bağlı ətraflı məlumat veriləcək. Tədbirin əsas məqsədi yerli şirkətlərə alternativ maliyyələşmə üsullarını təqdim etmək və bu istiqamətdə beynəlxalq təcrübəni bölüşməkdir.

## Sumqayıt Kimya Sənaye Parkı qeyri-neft sektorunun flaqmanına çevrilir



### Burada istehsal olunan məhsullar daxili tələbatı ödəməklə yanaşı, ixrac da edilir

Son bir neçə ildə Azərbaycanda sənayeləşmə istiqamətində mühüm addımlar atılır, o cümlədən ümumilikdə iqtisadiyyatın, xüsusən neft-qaz sektorunun inkişafında xüsusi rolu olan sənaye parkları və sənaye məhəllələri yaradılır. Onu da qeyd edək ki, belə tədbirlər birbaşa dövlət başçısının təşəbbüsü ilə həyata keçirilir və Prezident İlham Əliyevin bu günlər Sumqayıt Sənaye Parkında “Azmonbat” Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışında iştirak etməsi bunu sübut edir.

Ümumiyyətlə, qeyri-neft sənaye müəssisələrinin yaradılması ölkəmizin neft asılılığından azad olunmasında və ümumi iqtisadi inkişafında mühüm rol oynayır. Bu sahənin sürətli inkişafı indiki pandemiya dövründə özünü daha aydın göstərir. Belə ki, belə çətin zamanda sənayenin inkişafı ölkəmizdə dərin iqtisadi böhranın qarşısını alır, yeni ölkəmizin dünya bazarında qiyməti tez-tez dəyişən neft-qazdan asılılığını xeyli azaldır. Beynəlxalq maliyyə və reytinq təşkilatları da öz hesabatlarında Azərbaycanda bu istiqamətdə görülən işləri yüksək qiymətləndirirlər.

Bu baxımdan Sumqayıt Kimya Sənaye Parkında “Azmonbat” MMC-nin fəaliyyətə başlaması ölkə sənayesi üçün böyük əhəmiyyətə malikdir. Burada hazırlanan məhsullar daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanlarımızı da artırır. Əgər daxili tələbatın ödənilməsi ölkədən valyuta axınının qarşısını alırsa, ixracın artması əlavə valyuta qazanmağımıza imkan verir. Bu, ölkənin maliyyə dayanıqlılığının təmin edilməsində əhəmiyyətli amildir.

Parkdakı 17-ci rezident olan “Azmonbat” MMC-nin fəaliyyətə başlamasının iqtisadi və ekoloji cəhətdən xüsusi önəmi var. Müəssisədə istifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası aparılacaq, bunun sayəsində propilen və yüksək sıxlıqlı polietilen, qurğuşun külçə, qurğuşunlu aktiv kütlə, həmçinin sulfat məhlulu əldə olunacaq. Beləliklə, istifadəsiz qalan köhnə akkumulyatorlar gəlir gətirəcək və tullantıların ekologiyamıza vurduğu ziyanın qarşısını alacaq.

100 nəfərin işlə təmin olunduğu müəssisədə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyalarından istifadə olunur. Bu, müəssisəyə həm yüksək keyfiyyətli məhsul istehsal etməyə, həm də istehsalı artırmağa imkan verir. Yeri gəlmişkən qeyd edək ki, müəssisə ildə 30 min ton akkumulyator utilizasiya etmək gücünə malikdir. Bu isə ildə orta hesabla istifadə müddəti bitmiş 800 min akkumulyatorun faydalı məhsula çevrilməsi deməkdir. Üstəlik həmin akkumulyatorlardan 15 min ton qurğuşun və 4,5 min ton gübrə almaq mümkündür.

Sumqayıtda sovetlər dönəmində fəaliyyət göstərən müəssisələrin ətraf mühitə vurduğu ziyan məlumdur. Elə indinin özündə də həmin ziyanı aradan qaldırmaq üçün şəhərdə müəyyən layihələr icra edilir. Ancaq “Azmonbat” MMC-də müasir texnika və texnologiyalardan istifadə olunduğu üçün ətraf mühitə heç bir ziyan dəymir. Əksinə, bu müəssisənin fəaliyyəti ölkədə ekologiyanın sağlamlaşmasında mühüm rol oynayır. Bu səbəbdən “Azmonbat”ı iqtisadi mənfəət gətirən müəssisə olmaqla bərabər, həm də ekoloji layihə hesab etmək olar.

Xatırladaq ki, hazırda ölkəmizdə icra edilən sənayeləşmə siyasəti sayəsində 5 sənaye parkı fəaliyyət göstərir. 6-cı isə təməli qoyulan Ağdam Sənaye Parkıdır. Bu da onu göstərir ki, sənaye parkları və sənaye məhəllələri təkcə ölkənin paytaxtı və Sumqayıt şəhərində fəaliyyət göstərmir. Artıq regionlarda da belə müəssisələr var və onlar ölkə iqtisadiyyatına sanballı töhfə verir. Digər tərəfdən, sənaye parkları və sənaye məhəllələri əhalinin məşğulluğunda önəmli rol oynayır. Məsələn, Sumqayıtdakı parkda 5500-dək insan daimi işlə təmin olunub.

Bu cür park və məhəllələrin fəaliyyəti həm də sahibkarlığın inkişafını stimullaşdırır. Təkcə misal çəkdiyimiz Sumqayıt Sənaye Parkında 24 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və gələcəkdə daha 7 sahibkarlıq subyektinin fəaliyyəti də nəzərdə tutulur.

Bu gün həyata keçirilən sənayeləşmə siyasəti sayəsində ölkəmizdə istehsal olunan sənaye məhsullarının çeşidi və həcmi ildən-ilə artır. Həmin məhsullar yüksək texnologiyalardan istifadə edilərək hazırlandığı üçün rəqabətqabiliyyətlidir və xarici bazarda özünə rahatlıqla alıcı tapa bilir. Yalnız Sumqayıt Kimya Sənaye Parkında cari ilin birinci yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə 49 faiz çox məhsul istehsal olunub və 47 faiz çox ixrac həyata keçirilib. Digər 4 sənaye parkında da vəziyyət oxşardır və onlar da istehsalı və ixracı artırırlar. Bu isə ölkənin həm dayanıqlı inkişafını təmin edir, həm də neft-qaz gəlirlərindən asılılığını azaldır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Ağdamlı fermerlər məhsul yığımını davam etdirirlər

Ağdam rayonunun iqtisadiyyatında aparıcı yer tutan kənd təsərrüfatında məhsul yığımı davam edir.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, yanvar-avqust aylarında rayonun təsərrüfatlarından 44 min 559 ton taxıl, 4800 ton kartof, 61 min 073 ton soğan, 1830 ton bostan məhsulları, 692 ton meyvə tədarük olunub. Hər hektarın orta məhsuldarlığı taxıl üzrə 40,16 sentner, kartof üzrə 163,2 sentner, soğan üzrə 235,8 sentner, bostan məhsulları üzrə 217,8 sentner olub.

Hazırda rayonda məhsul yığımı ilə yanaşı, bəzi kənd təsərrüfatı bitkilərinin becərilməsi, pambıq yığımına və növbəti təsərrüfat ilinə hazırlıq işləri də davam etdirilir.

## Texnika fındıqçıların köməyinə gəlir

Fermerlərin istək və ehtiyacları nəzərə alınaraq Zaqatala rayonunda fındıqçılıq sahəsində istifadə olunan kənd təsərrüfatı texnika və avadanlıqlarının sərgi-satış yarmarkası keçirilib.



Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) həyətində təşkil olunan yarmarkada nazirliyin müvafiq qurumları, Aqrar Kredit və İnkişaf Agentliyi, “Aqroservis” ASC, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tabeliyində olan Zaqatala DAİM məntəqəsi, FAO, müxtəlif suvarma və mineral gübrələrin satış şirkətləri, həmçinin texnika satışı ilə məşğul olan şirkətlər və fermerlər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə sahənin inkişafı üçün lazım olan texnikalar - traktorlar, gübrəsəpənlər, frezlər, dərmansəpənlər, innovativ budaq doğrayan aqreqatlar, qoşqu vasitələri və digər avadanlıqlar nümayiş olunub.

Sərgidə həmçinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tabeliyində olan Zaqatala DAİM məntəqəsi tərəfindən fındıqçılığın inkişafı üçün yerli, xarici və qarışıq fındıq sortları nümayiş etdirilib. Mineral gübrələrin satışı ilə bağlı “Aqroservis” ASC və digər şirkətlər fındıqçılıqda istifadə olunan mineral gübrə və dərmanları sərgiləyiblər.

## Suvarılan kivi bağlarının hər hektarına birdəfəlik əkin subsidiyası veriləcək



2022-ci ildə salınacaq damcı suvarma sistemi ilə təmin olunmuş və bir hektarda ən azı 650 tingin əkildiyi kivi bağlarının hər hektarına görə fermerlərə 9000 manat birdəfəlik əkin subsidiyası veriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 7-də Aqrar Tədqiqatlar Mərkəzində keçirilən mətbuat konfransında Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Vüqar Hüseynov deyib.

Onun sözlərinə görə, bu ildən qeyd edilən kivi bağlarına görə fermerlərə 640 manat, digər kivi bağlarının hər hektarına görə isə 230 manat əkin subsidiyasının ödənilməsi nəzərdə tutulur.

## Tərtərdə 5 yaşayış məntəqəsini əhatə edən avtomobil yolu yenidən qurulub



Tərtər rayonunun Evoğlu-Aşağı Qapanlı-Azad Qaraqoyunlu-İlxıçılar-Köçərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Prezidentin sərəncamına əsasən, Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan tikinti işləri başa çatdırılıb.

Evoğlu-Aşağı Qapanlı-Azad Qaraqoyunlu-İlxıçılar-Köçərli kəndlərinə gedən və ümumi uzunluğu 11 km olan avtomobil yolları 7 minə yaxın əhalinin yaşadığı 5 kəndin rahat gediş-gəlişini təmin edir. Bundan öncə uzun müddət əsaslı şəkildə yenidən qurulmadan istismarda olması səbəbindən sözügedən yaşayış məntəqələrində yaşayan vətəndaşların istər rayon mərkəzinə, istərsə də qonşu rayonlara çıxışında xüsusən payız-qış mövsümündə problemlər yaşanırdı. Artıq bu problem aradan qaldırılıb.

IV texniki dərəcəyə uyğun yenidən qurulan yollar 10 metrə qədər genişləndirilib. Bura 6 metr hərəkət hissə və 2 metr çiyinlər daxildir. Aparılan genişləndirmə işləri öz növbəsində bütün hərəkət iştirakçılarının normal və təhlükəsiz hərəkətinə hesablanıb.

“İnşaat Norma və Qaydaları”nın tələblərinə əsasən, yollara iri və xırda dənəli olmaqla yeni asfalt-beton örtüyü döşənib.

Yüksək keyfiyyətlə icra olunan layihənin sonuncu mərhələsində yollar boyu zəruri yerlərdə avtobus dayanacaqları, yol nişanı, km göstəricisi və siqnal dirəkləri quraşdırılıb, hərəkətin normal təşkili üçün üfüqi nişanlama xətləri çəkilib.

Bir neçə yaşayış məntəqəsinə gedən yolların bərpası, inşası, müasir tələblər səviyyəsində yenidən qurulması vətəndaşlarımızın birbaşa olaraq sosial rifah halına müsbət təsir göstərməklə, avtomobillərin hərəkətinin təhlükəsizliyinə zəmin yaradır, yük və sərnişin daşımasını asanlaşdırır, kənd təsərrüfatının inkişafına təkan verir, məhsulun tez bir zamanda istehsalçıdan istehlakçıya çatdırılmasına hərtərəfli şərait yaradır.

## Şahbuzda yeni bank filialı açılıb

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayonunda yeni filialı istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Əsədulla İsgəndərov çıxış edərək “Naxçıvanbank”ın Azərbaycan Respublikasının ilk regional bankı olduğunu bildirib. Qeyd edib ki, “Naxçıvanbank” Mərkəzi Bank tərəfindən 2008-ci il 4 avqust tarixində verilən lisenziya əsasında həmin il sentyabrın 1-dən fəaliyyətə başlayıb. Bank əhaliyə, sahibkarlıq subyektlərinə universal bank və maliyyə xidmətini kompleks şəkildə göstərməkdədir. Bankın Naxçıvan, Şərur, Kəngərli, Culfa, Ordubad, Bakı şəhərlərində filial və şöbələri fəaliyyət göstərir. Baş idarə, 7 filial, bir şöbə, 2 valyutadəyişmə məntəqəsi, 44 bankomat, 72 ödəniş terminalı, 1021 POS-terminal və 61 mindən çox ödəniş kartı ilə müştərilərinə xidmət edən bankın cari ildə 14 mindən çox aktiv kredit müştərisi olub ki, onun da 529 nəfəri Şahbuz rayonunda yaşayan əhalidir. Müştəri məmnuniyyətini, şəffaflığı və peşəkar xidməti əsas prinsip seçən “Naxçıvanbank” ASC artıq Şahbuz rayonunda da fəaliyyətə başlayır.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin yeni filialının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib.

Qeyd olunub ki, “Naxçıvanbank” tərəfindən muxtar respublika sakinlərinə kənd təsərrüfatı istiqamətində, eyni zamanda, iqtisadiyyatın aparıcı sahələrində kreditlər verilir. “Naxçıvanbank” ASC-nin yeni rayon filialının yaradılması sakinlərin bankın xidmətlərindən rahat şəkildə istifadəsinə imkan verəcək. Şahbuz rayon sakinlərinə bütün kredit növləri daxil olmaqla, 3 milyon manata kimi maliyyə-kredit xidməti göstərilib. Bankın filialının açılması imkan verəcək ki, burada artıq kreditlərin əhatə dairəsi də genişlənsin və vətəndaşların kredit götürməsi daha asan, əlçatan olsun.

Baş nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müxtəlif dövrlərdə imzaladığı sərəncamlarla muxtar respublikada elektron ödəniş sistemlərinin inkişafı, rəqəmsal iqtisadiyyata keçidlə əlaqədar Dövlət proqramları qəbul olunub və uğurla icra edilir. Əsas məqsəd dağlıq rayonlarda, kənd yerlərində yaşayan əhali üçün elektron ödəniş sistemlərini, bank xidmətlərini daha əlçatan etməkdir. Bu gün Şahbuz rayonunda “Naxçıvanbank” ASC-nin yeni filialının yaradılması da artıq imkan verəcək ki, rayon sakinləri Naxçıvan şəhərinə getmədən “Naxçıvanbank”ın göstərdiyi bütün xidmətlərdən faydalansınlar. “Naxçıvanbank” ASC bu gün ölkə üzrə müştərilərinə ən aşağı faiz dərəcələri ilə xidmət göstərir.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev qeyd edib ki, “Naxçıvanbank” ASC-nin Şahbuz rayon filialının istifadəyə verilməsi rayonda müxtəlif sahələrin daha da inkişaf etməsinə şərait yaradacaq. Bu isə həm bankın inkişafında, həm də rayon sakinlərinin təsərrüfatlarını genişləndirməsində əhəmiyyətli rol oynayacaq.

Binaya baxış zamanı məlumat verilib ki, 2 mərtəbəli binanın birinci mərtəbəsində müştəri zalı, təhlükəsizlik, əməliyyat, kassa, qiymətlilərin saxlanma və server otaqları yerləşir. İkinci mərtəbədə isə müdir, kredit, arxiv və mütəxəssis otaqları, iclas zalı, qarderob və mətbəx vardır. Filialda biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda, kassa əməliyyatları və pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcəkdir.

## Ağcabədidə toxum sərgi-satış yarmarkası keçirilib

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Dövlət Toxum Fondunun təşkilatçılığı ilə Azərbaycanın müxtəlif regionlarında toxum sərgi-satış yarmarkaları keçirilir.**

Növbəti sərgi-satış yarmarkası Ağcabədi rayonunda təşkil olunub. Yarmarkada Aqrar Xidmətlər Agentliyinin müvafiq qurumları, Aqrar Kredit və İnkişaf Agentliyi, “Aqroservis” ASC, Azərbaycan Toxumçular Assosiasiyası, yerli toxum istehsalçıları, elmi-tədqiqat institutları, toxum istehsalı və satışı ilə məşğul olan şirkətlər, fermerlər iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov bildirib ki, Azərbaycan kənd təsərrüfatının inkişafı sahəsində tarixi ənənələrə malik olan ölkədir: “Dövlət başçısı bir sıra sahələrlə yanaşı, aqrar sektoru iqtisadiyyatın əsas prioritet istiqaməti kimi bəyan edib. Son illər kənd təsərrüfatında intensiv metodların tətbiqi yaxşı nəticələr verir və bu sahədə düşünülmüş addımlar atılır”.

Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyev isə çıxışında tədbirin əhəmiyyətindən danışaraq, sərgi-yarmarka çərçivəsində “Milli toxum ehtiyatının inkişafı”, “Xaricdən toxum asılılığını azaltmaq”, “Maksimum dəyər yaradan, təkmilləşmiş sortların toxumunun tez bir zamanda əkin dövriyyəsinə cəlb edilməsi”, “Özəl toxumçuluğun elmi əsaslarla inkişaf etdirilməsi üçün sabit çərçivənin yaradılması” və digər mövzular üzrə ətraflı məlumat verib.

Sonra fermer və sahibkarları maraqlandıran bir sıra məsələlərlə bağlı suallar cavablandırılıb və müzakirələr aparılıb.

Qeyd edək ki, yarmarkalar ümumilikdə ölkənin 6 bölgəsində təşkil olunur. Yarmarkaların müxtəlif regionlarda keçirilməsində əsas məqsəd toxum bazarının formalaşması, “seleksiyaçı-toxumçu-istehlakçı” zəncirlərinin real qarşılıqlı əlaqəsinin qurulması, işgüzar və səmərəli görüşlərin keçirilməsi, həmçinin fermerlər üçün sertifikatlı toxumların əlçatanlığının təmin olunmasıdır.

## Unutsaq, unudularıq

# Naşir ömrü

Cəsarətli, prinsipial, uzaqgörən... Onun xatirələrdə qalan portreti belədir. Bu portretə barəsində yazılanlara və bu gün də danışılanlara əsaslanaraq müxtəlif cizgilər də əlavə etmək olar. Səmimi, güləruz, iradəli, etibarlı, sözündən, məqsədindən dönməz... Həyatın sınaqları, taleyin zərbələri onu nə sındıra, nə sərtləşdirə, nə də bədbinləşdirə bilmişdi...



1990-cı ilin 30 mayında Bakıda namərd gülləsi belə bir insanı hədəf aldı. Həm də elə bir vaxtda ki, Azərbaycan xalqı yaralıydı. Elə həmin ilin yanvarında ağır faciələrlə üzləşmişdi. Tarixə qanla yazılmış 20 Yanvar faciəsinin ağrıları hələ də könülləri sızladırdı. O zaman həyatını təhlükəyə atanlardan biri də Əjdər Xanbabayev idi...

XX əsrin sonlarında müstəqilliyinə qovuşaraq onu əbədiləşdirmək arzusu ilə çırpınan Azərbaycan xalqına sovet imperiyası göz dağı vermək istədi. Amma qarşısında dərdindən güclənən, matəmini mübarizəsi ilə birləşdirən böyük Azərbaycan xalqının qüdrətini, yenilməzliyini gördü.

Şəhərdə komendant saatı elan edildi. İnformasiya blokadası yaradıldı. Bütün mətbəələr xüsusi nəzarətə götürüldü. Əjdər Xanbabayevin iş kabinetində, mətbəəsində dəfələrlə axtarışlar aparıldı. Hərbçilər məhv etmək üçün əlyazmasını axtardıqları kitabı tapa bilmədilər. O kitab "Qara Yanvar" adlanırdı. Və sovet hərbçilərinin ağlına gəlməzdi ki, əlyazmanın ələ keçməməsi üçün nəşriyyatın direktoru onu iş kabinetində qoymur, bütün təhlükələrə rəğmən özü ilə daşıyır...

1990-cı ilin yanvarında Azərbaycan xalqının başına gətirilən müsibətləri əks etdirən "Qara Yanvar" kitabı böyük çətinliklərlə hazırlanaraq çap olundu. Kitabı müxtəlif yollarla Moskvaya aparıb SSRİ Ali Sovetinin rəhbər şəxslərinə təqdim etdilər...

1990-cı ilin 30 mayında qəfil güllə səsi eşidiləndə paytaxt Bakının küçələrində, səkilərində, yollarında hələ də sovet ordusu hissələrinin qətlə yetirdikləri şəhid azərbaycanlıların qan izləri vardı. Bütün zərbələrin, dəhşətli bəlaların yağı düşməndən gələcəyini gözləməli ikən bu dəfə öz əlimizlə öz qəlbimizi yaralamışdıq. Xalqını sevən ziyalılarımızdan birinə - Əjdər Xanbabayevə sui-qəsd edən çox təəssüf ki, azərbaycanlı idi...

Qara xəbər tez yayılar deyiblər... Dostları, yaxınları Əjdər Xanbabayevin qətlə yetirildiyinə inanmadılar. Ancaq sonradan bir həqiqətin fərqinə vardılar. Əslində bu qara xəbərə inanmaq istəməmişdilər. Əjdər Xanbabayevin neçə vaxtdır göstərdiyi cəsarət, gözlədiyi və uğrunda çalışdığı hadisənin baş verməməsinə çalışanlar bu ölümü addım-addım yaxınlaşdırmışdılar.

Xalqını sevən, onun gələcəyi naminə doğru bildiyi yolla irəliləyən, öz həqiqətini, fikir və mülahizələrini hər zaman bəlli edən, cilddən-cildə girməyən ziyalı idi Əjdər Xanbabayev. O, nə siyasət adamıydı, nə də məşhurlaşmağa ehtiyacı vardı. Əjdər Xanbabayevi onsuz da tanıyırdılar. Sözübütöv, yaxşılıq etməkdən yorulmayan insan kimi ehtiram göstərirdilər. O, bacarığı və zəhməti ilə uğur qazanmağa can atanlara kömək edirdi. Yəqin ona görə ki, özü də bütün uğurlarına qabiliyyəti, savadı və əməyi sayəsində nail olmuşdu...

Əjdər Xanbabayev 1931-ci ildə Ordubadda çoxuşaqlı ailədə dünyaya gəlib. Anası Nərgiz xanım evdar qadın idi. Evdə doqquz uşaq onun şəfqəti, sevgisi ilə böyüyürdü. Uşaqların qayğıkeş atası Rza kişi yeməkxana müdiri idi.

Bu sadə, mehriban ailəyə ilk bəla təbii fəlakətlə gəldi. Onda Əjdər Xanbabayev bir neçə aylıq körpə idi. Ordubadda zəlzələ baş verdi. Anası onu yarıdağılmış yanan evdən xilas edə bildi. Ancaq evin dağıntıları altında qalan bacısı vəfat etdi.

O zaman görənlərin, eşidənlərin sağ qalmasını möcüzə hesab etdiyi körpə Əjdər böyüdükcə də həyatın çox ağır imtahanları ilə qarşılaşdı, doğmalarının vaxtsız itkilərinin ağrı-acısını yaşadı... 1935-ci ildə böyük qardaşı Mikayıl faciəli şəkildə vəfat etdi. 1937-ci ildə də NKVD atasını saxta ittihamla - qanunsuz silah saxlama adı ilə həbs etdi. Amma əsaslı dəlillər toplaya bilmədikləri üçün yaşadığı yerdən kənara çıxmamaq şərti ilə onu həbsxanadan buraxdılar.

Rza kişi azadlığa çıxdı, ancaq keçirdiyi sarsıntılar səhhətinə ciddi təsir göstərdi. Evə qayıtdıqdan sonra xəstələndi. Sağalan kimi ailəsi ilə Bakıya köçdü. Paytaxtda çətin günlər keçirdilər. Kirayə haqlarının ucuzluğuna görə zirzəmilərdə sığınacaq tapdılar. Ehtiyac, kasıblıq içində yaşayırdılar, bütün bunlar azmış kimi, atası tez-tez iş yerini dəyişmək məcburiyyətində qalırdı. Çünki hara gedirdisə, təhlükəsizlik orqanlarının təhdidini hiss edirdi. Rza kişi axır ki, karamel fabrikində fəhlə kimi işə düzəldi. "Kommunist əməyi zərbəçisi" adını aldı. Amma Xanbabayevlər ailəsi yenə yasa batdı. Keçirdiyi ağır sarsıntılardan sağlamlığını itirmiş Rza kişi 1944-cü ildə dünyasını dəyişdi.

Başçısını itirən ailənin vəziyyəti daha da ağırlaşdı. Dövr də çətin idi. Böyük Vətən müharibəsi davam edirdi. Müharibənin aclıq, səfalət bəlasını çəkməyən ailə çətin tapılardı. Talonla aldıqları ərzaq məhsulları ilə heç kim doymurdu. Əjdər Xanbabayevin böyük qardaşı İsmayıl ailəni Ordubada göndərməli oldu.

Əjdər Ordubadda həm fəhlə gənclər məktəbində oxuyur, həm də işləyirdi. Məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinə daxil olmaq üçün yenidən Bakıya döndü. Arzusuna çatdı. Ali məktəbə qəbul olundu. Ancaq onun tələbəlik illəri qayğısız keçmədi. Qardaşı ilə eyni otaqda kirayə qalır, yarıac-yarıtox dolanırdılar. Əjdər Xanbabayev birinci kursdan işləməyə başladı. Paytaxtdakı nəşriyyatların birində gözətçi, sonra kuryer işlədi. Üçüncü kursda oxuyanda o, Stalin təqaüdü almağa başladı. Bu təqaüd ailənin dolanışığına bir qədər təsir göstərdi.

1956-cı ildə universiteti bitirdi. Azərbaycan Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən "Elm" nəşriyyatında redaktor işləməyə başladı. Nəşriyyatın direktoru ilə aralarında narazılıq yarandı və onun işdən çıxması barədə əmr verildi. Əjdər Xanbabayev mühüm lüğətlərin redaktəsi ilə məşğul imiş. Onları bitirib sonra getmək istəyib. Bir gün direktor dəhlizdən keçəndə onun işlədiyini görüb. Səbəbini soruşub. Deyiblər ki, əlində iki vacib kitab var, onları bitirmədən getmək istəmir. Direktor otağına qayıdıb. Dərhal əmrini dəyişib, Əjdər Xanbabayevi nəşriyyatın baş redaktoru vəzifəsinə keçirib.

Belə başlayıb Əjdər Xanbabayevin naşir ömrü... Öyrənməyi və çalışmağı sevməsi onu tezliklə nəşriyyat sahəsində yüksək səviyyəli peşəkara çevirdi. Onun faciəli ölümü həm də respublikanın kitab nəşrinə zərbə oldu.

Uzun illər "Gənclik" nəşriyyatının baş redaktoru olmuş, şair, publisist Hidayət Orucov yazıb: "Nəşriyyat işinin elə incəlikləri, zərgər dəqiqliyi tələb edən elə xırdalıqları var ki, onlara heç bir dərslikdə, heç bir rəsmi sənəddə rast gələ bilməzsiniz. Respublikada mətbəə işi barədə hər şeyi bilən yalnız bir şəxs var idi, o da Əjdər müəllim idi".

Azərbaycan Elmlər Akademiyasının "Elm" nəşriyyatının direktoru vəzifəsinə təyin ediləndə onun iyirmi səkkiz yaşı vardı. Sonralar yeni açılan "Yazıçı" nəşriyyatının direktoru oldu. 1986-cı ildə daha mühüm vəzifəyə, Azərbaycan SSR Mətbuat, Poliqrafiya və Kitab Ticarəti Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin olundu. Qısa müddətdə 10 cildlik "Azərbaycan Ensiklopediyası" tamamlandı. 50 cildlik "Dünya uşaq ədəbiyyatı", Azərbaycan dilində "Dünya ədəbiyyatı kitabxanası"nın ilk 30 cildi, Azərbaycan və rus dillərində 20 cildlik "Azərbaycan klassik ədəbiyyatı kitabxanası" çapdan çıxdı. Nizami Gəncəvi və digər dahi şairlərin əsərləri xarici dillərdə nəşr olundu.

Əjdər Xanbabayev nəşriyyat işini həm nəzəri, həm də praktik baxımdan mükəmməl bilirdi. Ancaq yaxşı naşir olmaq üçün bunların kifayət etmədiyi məqamlar da olurdu. Onda Əjdər Xanbabayev özünəməxsus cəsarətlə məsələni həll edirdi. O illərdə kitabın çap olunması asan məsələ deyildi. Yüzlərlə yazıçı, şair növbə gözləyirdi. Əjdər Xanbabayev neçə-neçə istedadlı, amma tanınmamış yazıçıya, şairə kömək etmişdi. Özü də şeirlər yazırmış. Bunu vəfatından sonra şəxsi arxivindən çoxlu şeirləri tapanda biliblər. O qədər böyük imkanlarına rəğmən tanınmış naşir öz şeirlərini çap etdirməyib.

Akademik Ziya Bünyadov dostu Əjdər Xanbabayev barədə deyib: "Əgər Azərbaycanda yüksək intellektə və geniş dünyagörüşünə malik 5-6 nəfər varsa, onlardan biri də Əjdər Xanbabayev idi". Onu yaxından tanıyanlar əmin idilər ki, Əjdər Xanbabayev yalnız nəşriyyat işində deyil, bir sıra sahələrdə böyük uğurlara imza ata bilər. İstəsəydi namizədlik, doktorluq dissertasiyaları müdafiə edər, elm sahəsində böyük müvəffəqiyyət qazanardı. Respublikanın rəhbər vəzifələrində çalışa bilərdi. Amma o, seçdiyi peşəyə ömrünün sonunadək sadiq qaldı.

Əjdər Xanbabayevin cənazəsi ensiklopediyanın binasından qaldırıldı. Dəfn mərasimi izdihamla keçdi.

"Azərnəşr" direktorunun qətli ilə bağlı 1990-cı il mayın 31-də Bakı Şəhər Prokurorluğunda 44808 saylı cinayət işi açıldı. Qətl hadisəsi Heydər Əliyevin Azərbaycana qayıtmasının qarşısını almağa hədəflənmişdi. Hamının gün kimi aydın bildiyi bu həqiqətin üstünə kölgə salmaq üçün çox səy göstərdilər. Əjdər Xanbabayevin Qorbaçovun əsl simasını göstərən "Qara Yanvar" kitabının nəşrinə görə öldürüldüyü barədə rəyi formalaşdıra bilmədilər. Ortaya atmaq istədikləri qısqanclıq söhbəti də heç inandırıcı olmadı. 44808 saylı cinayət işi uzun illər əldən-ələ keçdi, dəfələrlə arxivə verildi.

Əjdər Xanbabayev siyasətdən uzaq idi. Amma siyasi motivlə qətlə yetirilmişdi. Təhlükəli yol tutduğunu özü də, dostları da yaxşı bilirmiş. Buna baxmayaraq, heç kim son nəticənin bu qədər ağır olacağına inanmayıb.

O, Heydər Əliyevə ilk dəfə 1989-cu ildə zəng edib. Həmin telefon söhbətini Ulu Öndər belə xatırlayırdı: "Əjdər Xanbabayev bildirdi ki, Moskvadadır və mənimlə görüşmək istəyir. Mən etiraz etmədim və ev ünvanımı verdim. Həmin gün və ya ertəsi gün o, bizə gəldi, söhbət etdik. O, mənim vəziyyətimlə maraqlandı, necə yaşadığımı soruşdu. Azərbaycanda vaxtilə bir yerdə işlədiyim adamların, qohumların gəlib-getmədiyi, məni yada salıb-salmadığı ilə maraqlandı. Mən gördüm ki, Xanbabayev mənim təcrid olunmuş vəziyyətdə, bəlkə də müəyyən qədər mühacirətdə, təzyiqlər altında yaşadığım dövrdə bir xeyirxah, qədirbilən insan kimi mənimlə maraqlanır, danışıb bəzi şeyləri aydınlaşdırmaq istəyir.

Mən onun bəzi suallarına cavab verəndə gördüm ki, təəccüb edir. Məsələn, mən ona deyəndə ki, uzun illər bir yerdə işlədiyim adamlar mən istefaya çıxdıqdan sonra, hətta xəstə olduğum vaxtlarda belə mənimlə maraqlanmayıb, məni arayıb-axtarmayıb, o, çox təəccübləndi, dəhşətə gəldi... Xanbabayevlə bizim görüşümüz, yaxın tanışlığımız belə başladı".

Ulu Öndər Heydər Əliyev xatırlayırdı ki, Bakıya gəlməyə hazırlaşırdı, mayın sonuna bilet almışdı. Ancaq mayın 30-da gecə Əjdər Xanbabayevə sui-qəsd olundu. Heydər Əliyev yada salırdı: "Tamamilə günahsız bir adam, Azərbaycan xalqının ziyalıları içərisində dərin hörmət qazanmış bir adam, xalq qarşısında və uzun illər mədəniyyətimizin mühüm bir sahəsi olan nəşriyyat işində böyük xidmətləri olan bir adam amansız surətdə öldürülüb, qətlə yetirilib. Bu, çox böyük cinayətdir. Mən hələ o vaxtlar, keçmiş Azərbaycan rəhbərlərinin hakimiyyəti dövründə müsahibə və danışıqlarımda bu hadisəyə etirazımı bildirmişəm və tələb etmişəm ki, bu cinayət açılmalıdır və günahkar cəzalandırılmalıdır. Mən belə güman edirəm ki, rəsmi dövlət dairələri bu cinayəti törədibsə, onlar bu ölümü aça bilməzdilər. Məni daxilən, mənəvi cəhətdən sıxan odur ki, Xanbabayev öz daxilimdən gələn münasibətə görə, daxili münasibətimin mənə bildirdiyinə görə, məhz məni qorxudub Azərbaycana gəlməyimin qarşısını almağa görə öldürülmüşdür. Görün bu cinayətkarlar necə dəhşətlidir. Xanbabayev mənim Bakıya gəlməyimin qarşısını almağa görə öldürülüb. Ona görə də mənim arzu və istəyim ondan ibarətdir ki, haqq, ədalət naminə o günahsız adamın qurban getməsini nəzərə alaraq, onun uşaqlarının, nəvəsinin naminə cinayətkarlar məsuliyyətə cəlb olunsun".

Heydər Əliyev hakimiyyətə gələndən sonra Əjdər Xanbabayevin qətlinin üstü açıldı. Altı il sonra qatillər məhkum kürsüsündə əyləşdi, icraçılardan başlayan iz yuxarılara uzandı...

Ömrü əlli yeddinci baharında namərd gülləsi ilə qırıldı. Onsuz keçən bu illər ərzində uğrunda çalışdığı, həyatını təhlükələrə atdığı arzuları gerçəkləşdi. O peşəkar naşirin, mərd insanın, vətənsevərin bu il doxsan yaşı tamam olur. Və bu gün Əjdər Xanbabayevin ruhunu şad edən bir Azərbaycan var. Düşmənlərinə gözdağı verən, azad, müstəqil Azərbaycan!

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qvineyadakı hərbi çevriliş və dünya bazarında alüminiumun qiyməti

## Bunların bir-biri ilə əlaqəsi varmı?



Qvineyada dövlət çevrilişi edən və Prezident Alfa Kondeni saxlayan hərbi qiyamın iştirakçıları ölkə daxilində komendant saatı tətbiq ediblər. Bu tədbirin nə vaxta qədər davam edəcəyi hələlik məlum deyil. Hələ ki, qiyamçılar növbəti məlumatları gözləməyi xahiş edirlər. Onlar həmçinin bütün qubernatorların və prefektlərin tezliklə hərbçilərlə əvəzlənəcəyini bildiriblər.

Qiyamçıların lideri, polkovnik Mamadi Dumbuyanın dediyinə görə, Qvineya parlamenti artıq buraxılıb, sərhədlər bağlanıb, ölkənin əsas qanunu - Konstitusiyası müvəqqəti işləmir. Amma "France Presse" agentliyinin verdiyi xəbərə əsasən, yerüstü və hava sərhədləri artıq açılıb.

Qiyamın səbəbi kimi ölkədə sosial-siyasi və iqtisadi vəziyyətin gərginləşməsi, dövlət təsisatlarının gücsüzlüyü, ədalətsiz hüquq-məhkəmə sistemi, insan hüquqlarına məhəl qoyulmaması və dövlət vəsaitlərindən səmərəsiz istifadə edilməsi bildirilir.

Fəaliyyət göstərən bütün nazirləri paytaxt Konakridəki Xalq sarayında görüşə dəvət edən Dumbuya onlara ölkəni tərk etməməyi və xidməti maşınlarını təhvil verməyi tapşırıb. O, yeni Nazirlər Kabinetinin yaxın həftələrdə formalaşdırılacağını bildirib.

Bu arada, ABŞ-ın aparıcı maliyyə informasiyası təchizatçısı - "Bloomberg" yazır ki, Qvineyada hakimiyyətin ələ keçirilməsi bütün dünyada alüminiumun qiymətinə təsir göstərmişdir. Məsələn, Londonda qiymətlər 10 illik maksimuma çatıb, Çində isə fyuçerslər 2006-cı ildən bəri ən yüksək həddə yüksəlib. Bundan əlavə, Qvineyada baş verən siyasi sabitsizliyin alüminium filizi olan boksit tədarükü ilə bağlı fasilələrə gətirib çıxarması riski var. Məlumat üçün bildirək ki, dünyada boksitin əsas satıcısı məhz Qvineyadır.

Bütün bunların fonunda Avropa İttifaqı diplomatiyasının rəhbəri Jozep Borrel ölkədə hakimiyyətin silahlı yolla ələ keçirilməsini Pisləyib, hərbi xuntanı ölkənin qanuni Prezidenti Alfa Kondeni azad etməyə və hadisələrin bütün iştirakçılarını Qvineyada sülh və əmin-amanlığın hökm sürməsi üçün qanuna uyğun hərəkət etməyə çağırıb. Bundan əvvəl Birləşmiş Millətlər Təşkilatının baş katibi Antonio Quterreş də eyni tələbi irəli sürmüşdü: "Mən hökumətin hər hansı bir silahlı işğalını pisləyirəm və Prezident Alfa Kondeni tezliklə azad etməyə çağırıram". O, Qvineyada baş verənləri diqqətlə izlədiyini bildirib.

83 yaşlı Alfa Konde bütün həyatı boyu ölkəsində diktatura rejimlərinə qarşı mübarizə aparmış və hətta həbsxanaya düşmüşdü. 2010-cu ildə o, dünyanın ən yoxsullarından sayılan bu Qərbi Afrika dövlətinin demokratik yolla seçilmiş ilk lideri olub. Lakin tənqidçilərin fikrincə, sonradan Konde avtoritarizmə doğru meyillənməyə başlayıb. 2020-ci ildə o, Konstitusiyaya dəyişiklik edərək əvvəlki iki prezidentlik müddətini sıfırlayıb və üçüncü dəfə seçkilərdə iştirak edərək qalib olub. Müxalifət iddia edir ki, sonuncu seçki pozuntular və saxtakarlıqsız ötüşməyib.

Sonda onu da bildirək ki, 12,4 milyon nəfər əhalisi olan Qvineya aqrar ölkədir. ÜDM səviyyəsinə görə dünyada 165-ci yeri tutur. Əhalinin 43,7 faizi (5,8 milyon) yoxsulluq həddindədir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hökümət evi İnzibati binasında istifadəsində olan otaqların cari təmiri.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçısı lazımi texniki və maliyyə imkanlarına malik olmalıdır.

**Azərbaycan Beynəlxalq Bankı ("Asan Ödəniş" ilə portal vasitəsilə ödəniş olunmalıdır)**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501;**
**Funksional təsnifat-00113;**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**İştirak haqqı-300 manat**

İştirak haqqı heç bir halda geri gaytarılmır.

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə 29.09.2021-ci il saat 13:00-a kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini 29.09.2021-ci il tarixə kimi və tender təklifi ilə bank təminatı sənədlərini 07 oktyabr 2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 08 oktyabr 2021-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti

### *açıq tender (e-tender) elan edir*

LOT-1. Dəftərxana və təsərrüfat mallarının alınması

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə "Dəftərxana və təsərrüfat mallarının alınması" işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanların malik olmalıdırlar.

İddiaçılar https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN Ödəniş" sistemi ilə köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı LOT-1: 230 (iki yüz otuz) manat

**Lənkəran Dövlət Universiteti**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 sentyabr 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 05 oktyabr 2021-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 06 oktyabr 2021-ci il saat 17:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "ABŞERON-ŞƏRAB" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ səhmdarlarının nəzərinə

25 oktyabr 2021-ci il saat 11:00-da "Abşeron-Şərab" ASC-nin (bundan sonra "Cəmiyyət" adlanır) səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakılar daxil edilmişdir:

1. Cəmiyyətin 2020-ci ildə fəaliyyyəti haqqında illik hesabatının təsdiqi.
2. Cəmiyyətin yenidən təşkil qaydasında qapalı səhmdar cəmiyyətinə çevrilməsi.
3. "Abşeron-Şərab" QSC-nin nizamnaməsinin təsdiqi.
4. "Abşeron-Şərab" QSC-nin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.
5. "Abşeron-Şərab" QSC-nin təftiş komissiyasının seçilməsi.
6. "Abşeron-Şərab" QSC-nin direktorlar şurasının üzvlərinin seçilməsi.

Ümumi yığıncaq AZ0118, Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Dostluq küçəsi, 1 ünvanında Cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Cəlilov Rahib (+99450) 2435763.

Səhmdarlar ümumi yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə materiallarla AZ0118, Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Dostluq küçəsi, 11 ünvanında Cəmiyyətin mühasibatlığında şəxsiyyəti təsdiq edən sənədi təqdim etməklə tanış ola bilərlər.

***İdarə Heyəti***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "Qeyri maddi aktivlərin alınması" işlərinin satın alınması məqsədilə 31 iyul 2021-ci il tarixdə tender.gov.az saytında dərc olunan kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 16 avqust 2021-ci il tarixli yekun protokoluna əsasən fiziki şəxs Cəfərli Fariz Şahir oğlu qalib elan edilmişdir.

Qaliblə 03 sentyabr 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "Mətbəə məhsullarının alınması" işlərinin satın alınması məqsədilə 31 iyul 2021-ci il tarixdə tender.gov.az saytında dərc olunan kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 16 avqust 2021-ci il tarixli yekun protokoluna əsasən "Aysun-2014" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 02 sentyabr 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Selection of International Individual Consultant to Design training system Reference No. AZ-AACD-249032-CS-INDV-A1-16DTS**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of three components:

(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*

(ii) *Component B - Agri-food value chain development. The Component helps to develop value chains by partially financing demand-driven investment proposals. It would also support activities for improving seed varieties and quality of seeds entering the market. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*

(iii) *Component C - Financial services to agribusiness would further promote growth of agribusiness/agro-food processing enterprises through a line of credit to enhance their competitiveness, increase production and improve technologies, building thus on the sizeable results in lending to agribusinesses and improved skills of participating banks in appraising agriculture-related investment loans, achieved under the World Bank's previous intervention.*

**The general objective**

The objective of assignment is to assist the AFSA in setting up Training Center of the Azerbaijan Food Safety institute (AFSI) aimed to deliver food safety and feed safety related trainings to the AFSA and AFSI staff including inspectors and also food safety specialists engaged in public and private sectors in line with the best international practices to ensure long-term sustainability in building institutional capacity of the AFSA, AFSI and stakeholders in the area of food safety.

*Food Safety Capacity Building.*

Under this subcomponent, following activities will be delivered:

- Establishment of Training System and Training Materials of AFSA;
- Improvement of legal and regulatory framework;
- Establishment of Animal Identification and Registration System;
- Support to Inspection and state control by provision of inspection technical means and instruments
- Support to laboratory development by provision of equipment and tool as well as veterinary laboratory in international accreditation.

**Scope of works:**

Under this assignment Consultant shall (i) develop Training Modules in the area of Food Safety; (ii) deliver TOT; and (iii) prepare recommendation on international capacity strengthening programs to ensure capacity building of the AFSA/AFSI staff.

The above mentioned shall help in achieving the following goals: (i) development of standard training Modules to be used by all trainers, (ii) proposal of the training and educational methodology (iii) setting up a pool of trainers through delivery of TOT.

**Additionally:**

- Hold consultations with counterparts and stakeholders on the subject;
- Work closely with other Consultant (economist) who will be also mobilized by ACIP;

Undertake other duties as might be required within the frame of the assignment

**Expected outputs and deliverables:**

With the view of the above mentioned, Consultant shall implement the following approach in developing of the following expected deliverables:

Consultant will help in developing training methodology, reviewing training procedures and templates and prepare standards Training Modules in the area of Food Safety and Feed Safety and deliver them.

Working arrangements:

- Consultant will work closely with the staff of AFSA and AFSI (training and development department). Assignment will be mainly Baku-based. However, assignment might be partially home-based given the epidemiologic situation.

**Duration of the assignment**

It is estimated that a total input of sixty (40) work/days will be required, deployed in a few missions on site during the period September - December 2021. The first mission to Azerbaijan is scheduled for late September 2021. Timing for the subsequent missions will be discussed during contract negotiations and agreed during the first mission.

**The shortlisting criteria are:**

- Degree in agriculture/food safety or related field (PhD) with a postgraduate degree in relevant field;
- Over ten years' experience in food safety area;
- At least seven years' experience in designing of training system;
- Previous experience with World Bank-funded projects and understanding of its requirements is preferable
- Previous experience of working in the region/country would be an asset.
- Excellent written and spoken English and strong writing skills;
- Working knowledge of Russian and Turkish asset, but not a requirement
- Sharing knowledge and experience, communicating ideas and managing information flow;
- Good inter-personal and communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by September 20, 2021.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**1965, Z.Bunyadov avenue, Chinar Park Business Center, AZ1075, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail: anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com;nargiz.acip@gmail.com**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.

*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ROCHE COBAS 6800 tam avtomat Real Time PZR analizatorunda istifadə olunan test dəstlərinin (amplifikasiya, ekstraksiya və istifadə ediləcək ləvazimatlar daxil) satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Anar Rəhimov, Telefon: +99412 310 07 70 (daxili 2022), E-mail: **arahimov@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Roche Cobas 6800 tam avtomat Real Time PZR analizatorunda istifadə olunan test dəstlərinin (amplifikasiya, ekstraksiya və istifadə ediləcək ləvazimatlar daxil) satın alınması.

***İştirak haqqı:***
***LOT-1. 1,000.00 (bir min manat 00 qəpik) manat.***
***İştirak haqqı heç bir halda geri qaytarılmır.***
***Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri.***
***Teşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs***
***VÖEN: 1701911851***
***Hesab: AZ52AIIB38090019440013375105***
***Bank: "Kapital Bank" ASC Səbail filialı***
***Bankın VÖEN-i: 9900003611***
***Kod: 200059***
***Müxbir hesabı: AZ37NABZ01350100000000001944***
***S.W.I.F.T.BIK -AIIBAZ2X***

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət.

2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.

3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış **(26.08.2021-ci il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır).**

4) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış **(26.08.2021-ci il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır).**

5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti **(2020-ci il üzrə)).**

6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır).

7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.

9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat **(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya ASAN xidmət mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).**

10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış. Malgöndərən uçotda olduğu statistika orqanından alır **(10.05.2021-ci il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır).**

11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış **(26.08.2021-ci il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır).**

12) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd **(vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə).**

13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

14) İddiaçının əməkdaşlarının İstehsalçı "Roche" şirkəti tərəfindən verilən Cobas 6800 avadanlığının servis mühəndisliyi üzrə müvafiq tələblərə cavab verən sertifikatları.

15) İddiaçının əməkdaşlarının İstehsalçı "Roche" şirkəti tərəfindən verilən Cobas 6800 avadanlığında istifadə olunan məhsullar üzrə müvafiq tələblərə cavab verən sertifikatları.

16) İstehsalçıdan malların təchizetmə məktubu (İddiaçı istehsalçı şirkət olmadığı təqdirdə istehsalçı şirkət tərəfindən malların təchizetmə məktubu təqdim olunmalıdır).

17) İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

18) Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 01.10.2021-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11.10.2021-ci il saat 17:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 12.10.2021-ci il saat 15:00-da Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**_1 illik_**
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

**_6 aylıq_**
**62,40 (altmış iki manat qırx qəpik) manat**

**_3 aylıq_**
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün noutbukların satın alınması məqsədilə tender elan edir

LOT-1. 13200 ədəd noutbukun satın alınması;

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 ünvanından (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **21.09.2021-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **29.09.2021-ci il 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.09.2021-ci il saat 16:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Elvin Rasim oğlu Mecidovun adına verilmiş 20.06.2020-ci il tarixli 2125 nömrəli (seriya №-AA 0005635) xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbərliyi və kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərova həyat yoldaşı

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərova həyat yoldaşı

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Günay Bank" ASC-nin Müşahidə Şurası sədrinin müşaviri Sabir Ağayevə həyat yoldaşı

**GÜLCAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Təchizat və təsərrüfat şöbəsinin baş mütəxəssisi

**MƏMMƏD PİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin kollektivi Bakı Apellyasiya Məhkəməsinin hakimi Qədim Babayevə atası

**XALİD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabulden Hacı Məhəmməd Hacıyev ailəsi ilə birlikdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərova həyat yoldaşı

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68, |
| Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82 |
| Məsul katib - 539-43-23, | İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri - 539-44-91, | Fotoillüstrasiya şöbəsi - 538-84-73, |
| Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi - 538-20-87, |
| İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55, | Mühasibatlıq - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4984
Sifariş 1644
Qiyməti 40 qəpik